9 sentyabr 2022 №66 (1939) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Animasiya kiçik uşağı və yaşlı insanı bir araya gətirə bilir”

### V ANİMAFİLM festivalı iqlim dəyişikliyinə həsr olunub

Xəbər verdiyimiz kimi, 7-11 sentyabr tarixində Bakıda V ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçirilir. Sentyabrın 7-də Nizami Kino Mərkəzində festivalın açılış mərasimi oldu.




Festivalın tərəfdaşları Mədəniyyət Nazirliyi, Azərbaycan Kinematoqrafçılar İttifaqı, Qarabağ Dirçəliş Fondu, “Culture Network House” Assosiyası, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası, Nizami Kino Mərkəzi, “Annecy” Beynəlxalq Animasiya Film Festivalı və digər qurumlardır. İqlim dəyişikliyinə həsr olunan builki festivalın devizi “Bir bilet – bir ağac”dır.

Açılış tədbirində mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazirliyin əməkdaşları, xarici ölkələrdən qonaqlar və kinosevərlər iştirak edirdi.

Tədbirdə əvvəlcə kamança ifaçısı, Əməkdar artist Toğrul Əsədullayevin ustad dərslərində iştirak edən istedadlı gənclərdən ibarət xalq çalğı alətləri ansamblının ifası təqdim olundu.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək qonaqları salamladı. Qeyd etdi ki, Azərbaycan kinematoqrafiyası dünya kinematoqrafiyasının tərkib hissəsidir. Bu sahənin inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması çox vacibdir: “Artıq ekran məzmunlu əsərlər ənənəvi kitablarla böyük rəqabət aparır və demək olar ki, bu rəqabətdən qalib ayrılır. İnsanlar daha çox ekran qabağında vaxt keçirir. Bu zaman insan ekran əsərində gördüyü məzmunla bərabər olur, bir sıra fikirləri onun əsasında formalaşır. Hər kəsin uşaqlıq xatirəsi olan bir animasiya filmi var. Animasiya filminin adı gələndə və ya ona baxmaq imkanı olanda böyük nəsil sanki öz keçmişinə qayıdır. Animasiya sahəsinin digər özəlliyi ondan ibarətdir ki, o, ən kiçik uşağı və ən yaşlı insanı bir araya gətirə bilir. Bu baxımdan animasiyanın cəmiyyətdə rolu vacibdir...”.

davamı səh. 2-də

## Şuşa şəhərində Sadıqcanın yaşadığı ev bərpa olunacaq

Prezident İlham Əliyev sentyabrın 7-də “Şuşa şəhərində Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb.

Sərəncama əsasən, Şuşa şəhərində görkəmli Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar Mirzə Əsəd oğlu Sadıqın (Sadıqcanın) yaşadığı evin layihələndirilməsi və bərpası məqsədilə “Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi” publik hüquqi şəxsə ilkin olaraq 600 min manat vəsait ayrılıb.

Maliyyə Nazirliyinə göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Mədəniyyət naziri ABŞ-da yaşayan diaspor nümayəndələrimizlə görüşüb

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 7-də ABŞ-da yaşayan azərbaycanlı diaspor nümayəndələrindən ibarət heyəti qəbul edib.

Nazir qonaqları səmimi salamlayaraq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor nümayəndələrinin mühüm rolu olduğunu vurğulayıb. Mədəniyyət sahəsində əməkdaşlıqda, eləcə də mədəni irsimizin təbliğində diaspor təşkilatlarının dəstəyinin vacibliyi diqqətə çatdırılıb.

səh. 3

## Bədii təhsil müəssisələrinə işə qəbul üzrə müsabiqə yekunlaşır

Mədəniyyət Nazirliyi sistemində bədii təhsil müəssisələrinə müəllimlərin işə qəbulu müsabiqə əsasında həyata keçirilir. Müsabiqə test imtahanı və müsahibədən ibarətdir.

Sentyabrın 5-dən Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu ilə bağlı müsabiqənin müsahibə mərhələsinə başlanılıb. Müsahibə mərhələsinə sentyabrın 9-da yekun vurulması nəzərdə tutulub.

səh. 5

## Bolqarıstanda Azərbaycan mədəniyyəti ilə bağlı təqdimat

Bolqarıstanın Küstendil şəhərində “Struma səhnələri” beynəlxalq festivalı çərçivəsində Azərbaycan mədəniyyəti təqdim olunub. Təqdimat Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən “Azərbaycan dili və mədəniyyəti mərkəzi”nin təşəbbüsü və Küstendil meriyası, “Presto” musiqi evi və “Bratstvo – 1869” icma mərkəzinin təşkilatçılığı ilə gerçəkləşib.

səh. 5

## İpəkçilik sənətimiz Bursada beynəlxalq festivalda



“Türk Dünyasının Mədəniyyət Paytaxtı” Bursada keçirilən III “Baramadan ipəyə” beynəlxalq festivalında Azərbaycanın ipəkçilik sənəti də təqdim edilib.

Bursa Böyükşəhər Bələdiyyəsinin təşkil etdiyi festivalda Nizami Gəncəvi Vəqfinin təşəbbüsü, Bakı Yunus Əmrə İnstitutunun dəstəyi və “Azəripək” MMC-nin tərəfdaşlığı ilə “Kəlağayı: Şəkidən Bursaya doğru uzanan ipək tellər” adlı milli stendimiz qurulub.

Tədbirin açılış mərasimində Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş Azərbaycan stendini ziyarət edib. Nizami Gəncəvi Vəqfinin direktoru Rəfi Qurbanov bələdiyyə başqanına stendimiz haqqında məlumat verib.

səh. 8

## “Azərbaycanı ilk dəfə muğamla tanımışam...”



”Mən Azərbaycanı ilk dəfə muğamla tanımışam. Bakıya 2017-ci ildə gələndə bu qədim diyarın mədəni irsini öyrənmək üçün hətta muğam dərslərinə yazıldım. Bakıda konsert verərkən bir xanım ifaçı ilə muğam oxumağa da cəhd göstərdim...”.

Bu sözləri sentyabrın 8-də Beynəlxalq Muğam Mərkəzində çıxış edən yaponiyalı caz ifaçısı Yamamoto Kyoko deyib.

Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin 30-cu ildönümünə həsr olunmuş konsert “Gündoğar ölkə”nin Bakıdakı səfirliyi tərəfindən təşkil edilib. İlk gündən Azərbaycan musiqisinə vurulduğunu bildirən yaponiyalı ifaçı Bakı Beynəlxalq Caz Festivalı haqqında məlumatı olduğunu da söyləyib. Qeyd edib ki, builki festivala qatılmasa da, növbəti illərdə iştirak etmək arzusundadır.

Konsert zamanı Yamamoto Kyoko “Sakura”, “Günəş ürəyi”, “Volare” mahnılarını ifa edib. Onun Azərbaycan dilində oxuduğu “Ay Laçın” və “Sarı gəlin” mahnıları xüsusi alqışlarla qarşılanıb.

mövzunun davamı səh. 3-də

## Doğma yurda qayıdış davam edir



İşğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə sentyabrın 7-də əhalinin köçürülməsinin növbəti mərhələsi həyata keçirilib. İkinci mərhələnin ilk qrupu Abşeron rayonunun Masazır qəsəbəsində yerləşən ”Zəngilan şəhərciyi”ndən doğma yurd-yuvalarına – Ağalıya dönüb.

Ağalıda sakinləri Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev qarşılayaraq, onları əzəli torpaqlarına qayıtmaları münasibətilə təbrik edib.

Sonra kəndə köçən ailələrlə birlikdə burada yaradılan şəraitlə tanışlıq olub. Xüsusi nümayəndəliyin əməkdaşları tərəfindən sakinlərə yeni evlərin açarları təqdim edilib.

Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev bildirib ki, sentyabrın 7-də Ağalıya 12 ailə (63 nəfər) köçürülüb.

davamı səh. 4-də

## “Aparılan bərpa-quruculuq işləri bizi heyran qoyur”

Sentyabrın 8-də dünyanın 20-dən çox ölkəsindən 40-a yaxın beynəlxalq səyahətçinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzura səfəri başlayıb. Heyətin rəhbəri dünyanın ən böyük 4 səyyah klubundan biri olan ABŞ-ın MTP (Most Travelled People) klubunun təsisçisi Charles Veleydir.




Beynəlxalq səyahətçilər ilk olaraq Şuşa şəhərinə gəliblər. Onlar şəhərin tarixi məkanları, görməli-gəzməli yerləri ilə tanış olublar.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşı qonaqlara Şuşa şəhəri, işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi siması, tarix və mədəniyyət abidələri də bərpa olunur.

davamı səh. 4-də

## Kraliça II Elizabet vəfat edib

### 71 il taxtda əyləşmişdi

Böyük Britaniya Kraliçası II Elizabet sentyabrın 8-də, ömrünün 97-ci ilində vəfat edib. Bu barədə Bukinqem Sarayı məlumat yayıb. Kraliça Şotlandiyadakı Balmoral qəsrində dünyasını dəyişib.



1926-cı il aprelin 21-də anadan olan II Elizabet (Elizabeth Alexandra Mary) atası Kral VI Georqun vəfatından sonra, 1952-ci il fevralın 6-da taxta çıxmışdı. Rəsmi tacqoyma mərasimi 2 iyun 1953-cü ildə keçirilmişdi.

II Elizabet Britaniya tarixində ən uzun müddət hakimiyyətdə olan monarx idi. Onun vəfatından sonra taxta 74 yaşlı oğlu və varisi, keçmiş Uels şahzadəsi Çarlz çıxıb. Onun Böyük Britaniya monarxı statusunda adı III Çarlz olacaq.

Kraliçanın vəfatı ilə bağlı Britaniyada 10 günlük matəm elan olunub.

### Şəhid qəhrəmana həsr olunan tamaşa göstərilib



səh. 4

### Dövlət Xidməti tarix-memarlıq abidələrinin görünüşünə müdaxilələrlə bağlı monitorinq keçirir

səh. 3




### “Balıqlara xütbə” “Asiya kinosuna pəncərə”də

səh. 8

# Dövlət Xidməti haqqında Əsasnamədə dəyişiklik edilib

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilib.

Prezident İlham Əliyev sentyabrın 8-də bununla bağlı fərman imzalayıb. Fərmanla "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.14-cü yarımbəndi (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin obyektlərinin və digər əsas fondlarının bərpasına, tikintisinə və təmirinə dair dövlət sifarişlərinin hazırlanmasında iştirak etmək, texniki təchizat vasitələrinin yeniləşdirilməsi işlərini həyata keçirmək) ləğv edilib.

# Mədəniyyət və incəsənətimizə verdikləri töhfələrə görə

Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva sentyabrın 8-də görkəmli sənətşünas, professor, Azərbaycan Rəssamlar İttifaqının üzvü Sevil Bədəlova və rəssam, sənətşünaslıq üzrə elmlər namizədi, dosent, Azərbaycan Rəssamlar İttifaqının üzvü Rasim Nəzirovla görüşüb.



Görüşdə uzun illər boyu Azərbaycan mədəniyyəti və incəsənətinə verdikləri töhfələrə, həmçinin zəngin mədəniyyətimizin ölkəmizdə və xaricdə təbliğində xidmətlərinə görə hər iki sənət xadiminə Mədəniyyət Nazirliyinin "Fəxri fərman"ı təqdim olunub.

Sevil Bədəlova Azərbaycan Rəssamlar İttifaqında çalışdığı dövrdə təşkil olunmuş sərgilərin kataloqlarının ön sözlərinin, həmçinin "XX əsr dünya incəsənəti", "Dekorativ-tətbiqi incəsənət" metodik vəsaitləri və proqramlarının, həmçinin rəssam H.Nəzərov, karikaturaçı R.Qədimov, R.Mehdiyev və Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinin 60 illiyinə həsr olunan monoqrafiyaların müəllifidir. Müxtəlif illərdə Bakı şəhərində keçirilmiş moda sərgilərinin təşkilatçısı olub.

Rasim Nəzirov 1979-cu ildən etibarən ölkə miqyaslı və beynəlxalq sərgilərin fəal iştirakçısı olub. Rəssamın əsərləri Gürcüstan, Rusiya, Polşa, Əfqanıstan, Türkiyə və digər ölkələrdə sərgilənib. O, həmçinin "Müasir incəsənətin aktual problemləri", "Xəttin təsviri sənətdə rolu", "Şərqin miniatür rəngkarlığında impovizasiyanın rolu" və s. elmi məqalələrin müəllifidir.

Mükafatlandırılan sənət adamları onlara göstərilən xüsusi diqqətə görə Mədəniyyət Nazirliyinə təşəkkürlərini bildiriblər.

# Musiqi mövzusu Azərbaycan ədəbiyyatında

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Alla Bayramova Qırğızıstanda keçirilən beynəlxalq simpoziuma onlayn formatda qatılıb.

UNESCO-nun Ənənəvi Musiqi üzrə Beynəlxalq Şurası – ICTM-in Türk dünyası musiqisi üzrə elmi tədqiqat qrupunun VIII beynəlxalq simpoziumunda Alla Bayramova "Musiqi mövzusu Azərbaycan ədəbiyyatında" adlı təqdimatla çıxış edib.

# "Üzeyir ənənəsinin sönməyən ulduzları"



Sentyabrın 22-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Opera studiyasında "Üzeyir ənənəsinin sönməyən ulduzları" adlı konsert proqramı təşkil olunacaq.

Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində təşkil olunan konsert proqramında "Avanqard" kamera orkestrinin təqdimatında məşhur milli kinofilmlərdən musiqi parçaları səsləndiriləcək. Retro və nostalji hisslərlə dolu musiqilər tamaşaçılarda xoş əhval-ruhiyyə yaradacaq.

# Lənkəran teatrında "Haqqın 44 günü"



Lənkəran Dövlət Dram Teatrı sentyabrın 16-da yeni mövsümə baş rejissor Anar Babalının qələmə aldığı və quruluş verdiyi "Haqqın 44 günü" tamaşası ilə başlayacaq.

Teatrdan bildirilib ki, tamaşada Birinci və İkinci Qarabağ müharibəsində baş verən hadisələr, xalqımızın igid oğullarının döyüşlərdə göstərdiyi şücaət obrazlı şəkildə əksini tapıb. Tamaşada müharibələrin xalqların taleyində, gündəlik həyat və məişətində yaratdığı çətinlik və ağrı-acılardan da bəhs olunur. Səhnə əsərinin quruluşçu rəssamı Adil Əsədli, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.

# Yeni dərs ilinə sayılı günlər qalıb

## Prezident paytaxtın rayonlarında yeni məktəb binaları ilə tanış olub

Hər bir dövlətin tərəqqisi və gələcəyi həm də onun təhsil səviyyəsi ilə bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayə deməkdir. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması, yeni məktəb binalarının inşası, onların müasir tədris avadanlığı ilə təchizatı daim diqqət mərkəzindədir. Bu işə Heydər Əliyev Fondu da 2005-ci ildən icra olunan "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramı ilə davamlı şəkildə dəstək verir.



Hər il olduğu kimi, 15 sentyabrda başlanacaq növbəti tədris ilini də paytaxtda və regionlarda bir sıra qocaman təhsil ocaqları yeni binalarında qarşılayır.

Prezident İlham Əliyev sentyabrın 8-də Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevə məktəbdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, 1928-ci ildə inşa edilən təhsil ocağında müxtəlif illərdə təmir-bərpa işləri görülsə də, sıxlıq səbəbindən məktəbin əsaslı şəkildə yenidən qurulmasına ehtiyac yaranmışdı. Məktəbin 790 şagird yerlik binasında 54 sinif otağı vardı. Azərbaycan Prezidentinin "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" 2020-ci il 5 may, 2021-ci il 8 may, 2022-ci il 27 aprel tarixli sərəncamlarının icrası ilə əlaqədar məktəbin binası əsaslı təmir edilib və köhnə korpus sökülərək yerində yenisi tikilib.

Eyni vaxtda 2304 şagirdin təhsil ala biləcəyi məktəb bütün inventarla təchiz edilib. Yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək müasir məktəb binası 82 sinif otağından ibarətdir. Dördmərtəbəli korpusda əmək, hərbi hazırlıq, rəsm, həkim, musiqi və müəllimlər otaqları, laboratoriyalar, kitabxana, yeməkxana, idman, aerobika və akt zalları da var.

Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə də tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov məlumat verib ki, 1931-ci ildən fəaliyyət göstərən 35 nömrəli tam orta məktəb tamamilə yenidən qurulub, təhsil ocağının 1931-1935-ci illərdə inşa edilmiş köhnə korpusu sökülərək yenidən inşa olunub. Məktəbin 888 şagird yerlik dördmərtəbəli binasında 24 sinif, informatika, əmək, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, yeməkxana və akt zalı yaradılıb.

# "Animasiya kiçik uşağı və yaşlı insanı bir araya gətirə bilir"

*əvvəli səh. 1-də*

Elnur Əliyev bildirdi ki, Mədəniyyət Nazirliyi olaraq məqsədimiz animasiyaya böyük yol açmaqdır: "Bildiyiniz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Kino Agentliyi yaradılır. Agentliyin əsas məqsədi kinematoqrafiya sahəsini sənayeləşdirməkdir. Bununla sözügedən sahə daha çox inkişaf edəcək. Mədəniyyət Nazirliyi tərəfindən keçən il "Böyük Qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsi keçirildi. Müsabiqədə "Tarix" və "Qarabağ nağılı" adlı iki animasiya ssenarisi qalib oldu. Həmin ssenarilər əsasında filmlərin istehsalı davam edir. Bu il də yeni bir animasiya filminin istehsalına başlamışıq. Yəni Mədəniyyət Nazirliyi bu sahədə öz imkanları çərçivəsində vacib addımlar atır".





Elnur Əliyev çıxışının sonunda festivalın işinə uğurlar arzuladı.

Sonra iqlim dəyişikliyi ilə bağlı "Kimsə bizdən soruşsun", "Qorxu pəriləri", "Donuz", "Kəpənəyin qanadları" animasiya filmləri nümayiş olundu.

Qarabağ Dirçəliş Fondunun ictimaiyyətlə əlaqələr və kommunikasiya üzrə koordinatoru Pərvin Məmmədova bildirdi ki, V ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının mövzusundan əlavə maraqlı və anlamlı kampaniyası da var. Bilet satışından əldə olunacaq vəsait işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası məqsədilə Qarabağ Dirçəliş Fonduna ianə ediləcək: "Vəsait Qarabağ ərazisində ağac əkilməsinə istifadə olunacaq. Təbiətin dostu olan hər kəsi bilet alaraq bu mühüm təşəbbüsü dəstəkləməyə dəvət edirik. Əldə etdiyiniz hər bilet Qarabağı daha yaşıl bərpa etməyə imkan verəcək. Qarabağı birlikdə daha gözəl bərpa edəcəyik".

Pərvin Məmmədova Qarabağ Dirçəliş Fondu ilk layihəsinin Qarabağımızda ekoloji tarazlığın bərpasına həsr olunduğunu dedi: "Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə bərabər çıxdığımız bu yolda layihələrimiz davam edir. Biz bu layihəyə Zəngilandan başlamışdıq. Zəngilanda artıq 30 min ağac əkilib. Qarabağımızın digər ərazilərində də bu ənənə davam edəcək".

ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının təsisçisi və direktoru, "Azərbaycan Animasiya Assosiasiyası" İctimai Birliyinin sədri Rəşid Ağamalıyev və layihənin art-direktoru Nəzrin Ağamalıyeva festival haqqında məlumat verdilər. Qeyd olundu ki, bu il festival tamaşaçılara müsabiqə, müsabiqədənkənar və peşəkarlar olmaqlar üç əsas proqram təqdim edəcək.



Festivala 50 ölkədən 230 film daxil olub. Seçim komissiyası müsabiqəyə 29 ölkədən 75 film qəbul edib. İştirakçılar bir yerli və altı beynəlxalq kateqoriya üzrə mükafatlar uğrunda yarışacaqlar. Azərbaycandan 16 film müsabiqədə iştirak edir. Bütün seçilmiş filmləri beynəlxalq və uşaq münsiflər heyəti izləyəcək. Həmçinin "Tamaşaçı seçimi" müsabiqəsinin qalibi izləyicilərin səsverməsinin nəticələri əsasında müəyyənləşəcək. Bütün seçilmiş filmlərə beynəlxalq münsiflər heyəti baxacaq, qaliblər festivalın bağlanış mərasimində elan olunacaq.

Festivalın ən dəyərli mükafatı Fransada keçirilən "Annecy" Beynəlxalq Animasiya Film Festivalına səyahətdir. Digər kateqoriyalarda pul mükafatı, planşetlər və keramik heykəlciklər təqdim ediləcək.

Nəzrin Ağamalıyeva 2023-cü ildə keçiriləcək altıncı festivalın mövzusunun "Gender bərabərliyi"nə həsr olunacağını da diqqətə çatdırdı.

İsveçrə Əməkdaşlıq Təşkilatı Bakı ofisinin rəhbəri Alberto Hernandez və "Val" animasiya filminin rejissoru Jonathan Laskar festival haqqında fikirlərini bölüşdülər.

Sonda "Val" filmi nümayiş olundu.

Qeyd edək ki, festival çərçivəsində Nizami Kino Mərkəzində rejissor Jonathan Laskarnın ustad dərsi də təşkil olunacaq. Bundan əlavə, proqramda Nitya Ramloqan (ABŞ), Tilly Vallace (İngiltərə) və Nəzrin Ağamalıyevanın (Azərbaycan) iştirakı ilə "Stop montion" və "Şüşə üzərində animasiya" vorkşopları nəzərdə tutulub. "Animasiya refreyminqi: rəqəmsal texnologiyalar əsrində hərəkətli təsvirin qorunması və bərpası" adlı konfrans da festivalın əsas proqramına daxil edilən tədbirlərdəndir.

**Nurəddin**

# Hər fəsildə tamaşalar

## Bakı Dövlət Sirki ilboyu fəaliyyət göstərəcək

Bakı Dövlət Sirki öz loqotipini yeniləyib. Bu barədə sirkdən məlumat verilib. Bildirilib ki, yeni loqotipdə 12 sirk elementindən istifadə olunub. Əsas ideya ondan ibarətdir ki, sirk yeni mövsümdən etibarən ilin bütün fəsillərində fəaliyyət göstərəcək.




Qırmızı rəngdə üçbucaqlardan ibarət olan 12 element birləşərək sirk binasının damörtüyünün formasını alıb. Bu məqam bir daha ona işarədir ki, Bakı Dövlət Sirki dünya standartlarına cavab verən sirk proqramı ilə ilin bütün fəsillərində sirk həvəskarlarını qarşılamağa, onlara qucaq açmağa hazırdır.

Yeni mövsümdə Bakı Dövlət Sirkində ilk tamaşa – "Fil və dostları" adlı beynəlxalq proqram oktyabrın 14-dən noyabrın 27-dək davam edəcək. Proqramın təşkilatçısı məşhur azərbaycanlı sirk ustası Allahverdi İsrafilovdur.

Proqramda fillərdən savayı ərəb atlarının xüsusi performansı, klounların peşəkar ustalığı, möhtəşəm illüziya şousu, hava gimnastlarının fəndləri və digər nümunələr də bütün tamaşaçıları heyrətləndirəcək. Proqram ilk olaraq şəhid və qazi ailələri üçün xeyriyyə məqsədilə nümayiş olunacaq.

**Lalə**

# Akademik Musiqili Teatr yeni mövsümü Şuşada açacaq

Məlum olduğu kimi, sentyabrın 18-dən 26-dək ölkəmizdə XIV Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Ənənəvi festivalda Azərbaycan Dövlət Akademik Musiqili Teatrı da hər il iştirak edir.

Bu dəfə isə teatrın tarixində ilk olaraq mövsümün açılışı Şuşa şəhərində olacaq. Sentyabrın 18-də mədəniyyət paytaxtımızda açıq səma altında gerçəkləşəcək "Şuşadan dünyaya yayılan musiqi" layihəsində teatrın repertuarından Üzeyir Hacıbəylinin "Arşın mal alan", "Ər və arvad", "O olmasın, bu olsun" musiqili komediyalarından parçalar da təqdim olunacaq.

Tamaşalardan parçaları Xalq artisti İlham Namiq Kamal, Əməkdar artistlər Naidə Orucova, Nərgiz Kərimova, Əzizağa Əzizov, Ələkbər Əliyev, Əkbər Əlizadə, Şövqi Hüseynov, Fərid Əliyev, aktyorlar Gülcahan Salamova, Ülviyyə Əliyeva, Aydan Həsənova, Mehriban Zaliyeva, Səmədzadə Xasıyev, Hüseyn Əlili, Əliməmməd Novruzov, Ruslan Mürsəlov və başqaları ifa edəcəklər.

Bundan əlavə, Musiqili Teatr festival çərçivəsində sentyabrın 22-də Gəncədə "O olmasın, bu olsun" tamaşasını nümayiş etdirəcək.

# Mədəniyyət naziri ABŞ-da yaşayan diaspor nümayəndələrimizlə görüşüb

## "Mədəniyyətimizin təbliğinə xidmət edən layihələrə dəstək olacağıq"



Mədəniyyət naziri Anar Kərimov sentyabrın 7-də ABŞ-da yaşayan azərbaycanlı diaspor nümayəndələrindən ibarət heyəti qəbul edib.

Görüşdə Diasporla İş üzrə Dövlət Komitəsinin dəvəti ilə ölkəmizə gələn Amerika-Azərbaycan Cəmiyyətinin rəhbəri Tomris Azəri, cəmiyyətin üzvləri Nigar Pənahova və Seva Əzimova, türk əsilli amerikalı jurnalist Cemil Fatih Özyurt və digərləri iştirak ediblər.

Nazir qonaqları səmimi salamlayaraq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor nümayəndələrinin mühüm rolu olduğunu vurğulayıb.

Anar Kərimov bu ilin may ayında ABŞ-a səfəri çərçivəsində BMT-nin qərargahında, eləcə də bu ölkənin bir sıra mədəniyyət müəssisələrində keçirilən görüşlər barədə məlumat verib. Bildirib ki, Birləşmiş Ştatlardakı diasporumuz Azərbaycan mədəniyyətinin tanıdılmasında böyük rol oynayır. Nazir mədəniyyət sahəsində əməkdaşlıqda, eləcə də mədəni irsimizin təbliğində diaspor təşkilatlarının dəstəyinin vacibliyini diqqətə çatdırıb.

Anar Kərimov Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" qlobal təşəbbüsü və Mədəniyyət Nazirliyinin 2021-ci ildə elan etdiyi "Mədəniyyət naminə sülh" (Peace4Culture) beynəlxalq çağırışı barədə də nümayəndə heyətinə məlumat verib. Qeyd edib ki, "Mədəniyyət naminə sülh" çağırışının əsas məqsədi postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhə töhfə verməkdən ibarətdir. Bu qlobal kampaniya eyni zamanda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud vəziyyətin, dağıdılmış infrastrukturun və mədəniyyətimizə qarşı törədilmiş vandalizmin dünyaya çatdırılması məqsədi daşıyır.

Səmimi qəbula görə nazirə təşəkkürünü bildirən diaspor nümayəndələri Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən tədbirlərdə iştirak etməkdən məmnun olduqlarını deyiblər. Onlar bundan sonra da mədəniyyətimizin təbliğinə xidmət edən layihələrə dəstək olacaqlarını vurğulayıblar.

# Azərbaycan-Yaponiya diplomatik əlaqələrinin 30 illiyi münasibətilə

Sentyabrın 7-də Azərbaycan Respublikası ilə Yaponiya arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü tamam oldu. Bu münasibətlə Beynəlxalq Muğam Mərkəzində (BMM) Yaponiyanın ölkəmizdəki səfirliyi tərəfindən yubiley mərasimi və konsert təşkil edilib.







Mərasimdə çıxış edən səfir Cuniçi Vada diplomatik münasibətlərin bünövrəsinin qoyulduğu 1992-ci ildən bu yana ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin qurulduğunu vurğulayıb: "Yaponiya və Azərbaycan iqtisadi sahədə də uğurlu əməkdaşlıq edir. Ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi üçün kifayət qədər əsaslar mövcuddur. Gələcəkdə Tokio ilə Bakı arasında birbaşa aviareysin açılması və kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da genişləndirilməsi əlaqələrimizə mühüm töhfə verəcək. Yaponiya Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma işlərinə də dəstək verməyə hazırdır...".

Yaponiya ilə Azərbaycan arasında mehriban münasibətlərin inkişafında qarşılıqlı səfərlərin rolunu qeyd edən Cuniçi Vada mədəni, humanitar və digər sahələrdə birgə layihələrin həyata keçirildiyini də məmnunluqla vurğulayıb.

Ekologiya və təbii sərvətlər naziri, Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının sədri Muxtar Babayev bildirib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Yaponiya ilə sıx əməkdaşlıq edən ölkələrdən biridir. Bu il Azərbaycan ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının 11-ci iclasının keçirilməsi də bunun bir göstəricisidir. Hazırda Qarabağın yaşıl enerji zonasına çevrilməsi üzrə işlər aparılır və bu işlərə Yaponiya şirkətlərinin də cəlb olunması prioritet məsələdir. Qeyd olunub ki, iki ölkənin 1997-1998-ci illərdə təşəkkül tapan parlamentlərarası əlaqələri də dostluq və əməkdaşlığa töhfədir.

Tədbirdə daha sonra millət vəkili, Milli Məclisdə Yaponiya ilə dostluq qrupunun üzvü Məlahət İbrahimqızı, Bakıdakı "Şimal-2" elektrik stansiyası layihəsinin meneceri, Azərbaycan Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilən Sato Mitsuyuki və Yaponiyanın "Fuji Optical" Co.Ltd şirkətinin rəhbəri, dünya şöhrətli oftalmoloq Akio Kanai çıxış ediblər.

Qeyd edək ki, Akio Kanai bir neçə il öncə Yaponiyanın "Yomiuri" qəzetinin "Yomiuri Şinbun Beynəlxalq Əməkdaşlıq Mükafatı"na layiq görülmüşdü. O, həmin mükafatın 5 milyon yen həcmində məbləğini Azərbaycandakı məcburi köçkünlərə və aztəminatlı ailələrə, eləcə də qazilərə optometrik xidmətlər göstərmək məqsədilə ayırmışdı.

Çıxışlarda vurğulanıb ki, Yaponiya-Azərbaycan əlaqələri ictimai həyatın əksər sahələrini əhatə edir. Qarşılıqlı əlaqələr və birgə əməkdaşlıq ölkələrin və xalqların bir-birlərini daha yaxından tanımalarına şərait yaradır.

Rəsmi hissədən sonra yapon caz ifaçısı Yamamoto Kyoko BMM-nin solistləri ilə birgə qısa konsert proqramı təqdim edib. Proqramda yapon xalq musiqisi və Azərbaycan muğamının sintezi şəklində musiqi nömrələri təqdim olunub.

Onu da qeyd edək ki, sentyabrın 8-də Y.Kyoko azərbaycanlı musiqiçilərlə birlikdə BMM-də geniş konsert proqramı ilə çıxış edib.

# İranla mədəni sahədə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

Azərbaycan Respublikasının İrandakı səfiri Əli Əlizadə İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının rəhbəri Məhəmməd Mehdi İmanipur ilə görüşüb.

Görüşdə iki ölkə xalqlarının tarixi, mənəvi və mədəni bağlılığı, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın önəmi qeyd olunub.

Qarşılıqlı olaraq mədəniyyət günlərinin hər iki ölkənin paytaxt və regionlarında keçirilməsi, kino həftələrinin, müştərək sərgilərin, konfransların, səfərlərin təşkil olunması, dini, tarixi-mədəni abidələrin qorunması və digər birgə tədbirlərin reallaşdırılması istiqamətində fikir mübadiləsi aparılıb.

# "Zəfər – 44" adlı rəsm yaradıcılıq turniri

Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Azərbaycan Rəssamlar İttifaqı və Xətai Rayon İcra Hakimiyyətinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Zəfər – 44" adlı uşaq rəsm yaradıcılıq turniri elan olunub.

Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi qalibiyyətə həsr olunmuş müsabiqə 10-21 yaş arası uşaq, yeniyetmə və gənclər arasında keçirilir.

İştirak etmək istəyənlər sentyabrın 30-dək müvafiq anketi tamamlayıb Xətai Sənət Mərkəzinin "Facebook" qrupunda yerləşdirə bilərlər. Müraciət edənlərin iştirak günü qeyd olunmaqla siyahısı qrupda yayımlanacaq.

İştirakçı 2 saat ərzində nəzarətçi rəssamların müşayiəti ilə sərbəst mövzuda hər hansı bir rəsm əsərini ərsəyə gətirməlidir. Plenerlər Xətai Sənət Mərkəzində keçiriləcək.

Hər plenerin sonunda ilkin seçim aparılacaq. İlkin seçilmiş əsərlər arasından ən yaxşı 44 rəsm turnirin yekun sərgisi üçün seçiləcək.

# "Xəzərin rəqsi" – uşaq və gənclər arasında müsabiqə

Oktyabr-dekabr aylarında Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşəbbüsü və təşkilatçılığı ilə "Xəzərin rəqsi" adlı rəqs müsabiqəsi keçiriləcək.

Baş idarədən bildirilib ki, müsabiqənin məqsədi rəqs sənətini inkişaf etdirmək qədim ənənələrini qoruyub saxlamaq, bu sənətin təbliğini genişləndirmək, həmçinin rəqs sənəti üzrə istedadları aşkar etmək və onlara bu sahədə geniş imkanlar yaratmaqdır.

Müsabiqə iki turdan ibarət olacaq və Bakı şəhərinin 12 rayonu üzrə keçiriləcək. Gələcəkdə isə bütün ölkə ərazisini əhatə edəcək. Müsabiqədə iştirakçıların yaş həddi 3 qrup üzrə (6-10, 11-15, 16-18) müəyyənləşdirilib.

Qaliblərin seçimini Bakı Şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən yaradılmış münsiflər heyəti həyata keçirəcək. İlk seçim turu oktyabrın 1-də H.Abbasov adına Mədəniyyət Mərkəzində, daha sonra baş idarənin tabeliyində olan digər mədəniyyət müəssisələrində keçiriləcək. Qaliblərin mükafatlandırılması və yekun konserti dekabrda təşkil olunacaq.

İştirakçılar qeydiyyat və müsabiqə barədə ətraflı məlumat əldə etmək üçün musabiqe@bakuculture.gov.az elektron poçt ünvanına və ya (012) 492-91-59 telefon nömrəsinə müraciət edə bilərlər.

# Tarix-memarlıq abidələrinin görünüşünə müdaxilələr aradan qaldırılır

## Dövlət Xidməti monitorinqlər keçirir

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən Bakı şəhərinin mərkəzi küçə və prospektlərində yerləşən tarix-memarlıq abidələrinə edilən qanunsuz müdaxilələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə monitorinqlər keçirilir.




Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən sentyabrın 7-də paytaxtın Azadlıq prospekti 22 ünvanında növbəti monitorinq gerçəkləşdi.

Qurumun mətbuat katibi Fariz Hüseynli bildirdi ki, monitorinqlər ilkin olaraq Bakı şəhərində dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix-memarlıq abidələrini əhatə edir. Həyata keçirilən tədbirlər nəticəsində tarixi abidələrin bədii-estetik görünüşünə, memarlıq üslubuna xələl gətirən müdaxilələr aradan qaldırılıb. Obyekt sahibləri ilə maarifləndirici söhbət aparılıb. Xəbərdarlıqlara əməl etməyən obyekt sahiblərinə protokollar tərtib edilib.

Həmçinin Dövlət Xidməti ilə abidə (bina) mülkiyyətçiləri və icarədarları arasında ümumi mühafizə öhdəliklərini ehtiva edən, həm də mülkiyyətçinin abidə ilə bağlı hüquqlarının əks olunduğu mühafizə müqaviləsinin bağlanmasının zəruriliyi diqqətə çatdırılıb.

Dövlət Xidmətinin nümayəndəsi qeyd etdi ki, monitorinqin məqsədi sahibkarları cərimələmək deyil, tarix-mədəniyyət abidələrinin qorunması ilə bağlı qanunvericiliyin həyata keçirilməsi, eyni zamanda bu abidələrin bədii-estetik görkəminin korlanmasının qarşısını almaqdır: "Edilmiş müdaxilələri könüllü şəkildə aradan qaldıran şəxslərə protokollar tərtib olunmayacaq. Bu səbəbdən də istifadəsində və ya mülkiyyətində tarixi abidələr olan vətəndaşlarımızı abidələrimizin, eləcə də şəhərimizin estetik görünüşünün qorunmasına və gələcək nəsillərə tam şəkildə çatdırılmasına həssas yanaşmağa çağırırıq".

Daha sonra Azadlıq prospekti 22 ünvanında yerləşən Bakı Dəmiryolu Vağzalının köhnə binası üzərindəki reklam lövhələri, əşya və digər avadanlıqlar sökülərək tarixi abidənin bədii-estetik görünüşünə, memarlıq üslubuna xələl gətirən müdaxilələr aradan qaldırıldı.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən sentyabrın 1-dən başlayaraq 20-dən çox tarix-memarlıq abidəsində monitorinq keçirilib. Monitorinqlər həm paytaxtda, həm də bölgələrdə yerləşən tarixi abidələri əhatə edəcək.

**Nurəddin**

# "Mədəni zənginliklərimizin təbliğinə töhfə vermək istəyirik"

Sentyabrın 8-də "Courtyard by Marriott Baku" hotelində "Cultural Network House" Assosiasiyasının təqdimatına həsr olunan tədbir keçirildi.




Assosiasiyanın sədri Aynur Süleymanzadə bildirdi ki, məqsədləri Azərbaycanın milli-mənəvi irsini, ənənələrini və zəngin mədəniyyətini dünya xalqlarına çatdırmaq, eyni zamanda ölkənin mədəni həyatında fəal iştirak etmək, vebinarlar, ustad dərsləri və s. təşkil etməkdir. Assosiasiya qısa zamanda yaranmasına baxmayaraq, "Ustad dərsləri", "Biz sənətkarıq", "Art-terapiya" kimi bir neçə mədəniyyət tədbiri həyata keçirib. Eyni zamanda "Sənətlə toxunuş" adlı layihəsi qrant qazanıb. Bu layihənin məqsədi sosial-psixoloji vəziyyəti gərgin olan və sığınacaqlarda yaşayan ana və uşaqlarda art-terapiya metodu vasitəsilə emosional vəziyyətin yaxşılaşdırılması və stresin azaldılmasına, özgüvənin artırılmasına dəstək olmaqdır.

Aynur Süleymanzadə əlavə etdi ki, qurum beynəlxalq müstəvidə də Azərbaycan mədəniyyətinin təbliğini həyata keçirir. Assosiasiyanın nümayəndə heyəti avqust ayında Türkiyə-Azərbaycan Dostluq, İşbirliyi və Dayanışma Vəqfinin dəvəti ilə ilk türk qadın vəkil Sürəyya Ağaoğlunun (1903-1989) anadan olmasının 119-cu ildönümünə həsr edilmiş simpoziumda iştirak edib. Səfər zamanı iki qurum arasında hər iki ölkədə mədəni tədbirlərin təşkilinə və əməkdaşlıqla bağlı razılıq əldə olunub.

Tədbirdə qurumun növbəti il üçün tədbirlər planı haqqında da məlumat verildi.

Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru Toğrul Əsədullayev assosiasiyanın fəaliyyətini yüksək qiymətləndirdi. Kamança ifaçısı "Cultural Network House" Assosiasiyası və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ustad dərsləri" layihəsində iştirakından məmnunluğunu dilə gətirdi. Dedi ki, layihə çərçivəsində istedadlı uşaqlardan ibarət xalq çalğı alətləri ansamblı yaradılıb. Ansambl artıq İctimai Televiziyanın "Ustad dərsi" proqramında onun rəhbərliyi ilə konsert proqramı da təqdim edib. Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nəzdində fəaliyyət göstərən 36 musiqi məktəbindən seçilən istedadlı uşaqlar gələcəkdə tanınmış ifaçı və musiqiçilərin ustad dərslərində də iştirak edəcəklər. Əməkdar artistlər – pianoçu Şahin Növrəsli, dirijor Fuad İbrahimovla gənc musiqiçilərin yaxın günlərdə görüşləri təşkil olunacaq.

Tədbirin sonunda T.Əsədullayevin rəhbərliyi ilə istedadlı uşaqlardan ibarət ansamblın çıxışı təqdim olundu. Proqramda xalq mahnılarımız səsləndirildi.

**Lalə Azəri**

№66 (1939)
9 sentyabr 2022
www.medeniyyet.az

# "Aparılan bərpa-quruculuq işləri bizi heyran qoyur"

## Beynəlxalq səyahətçilərin daha bir qrupu işğaldan azad edilmiş torpaqlarda

*əvvəli səh. 1-də*

Şuşa şəhər mərkəzi meydanına gələn qonaqlara Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin işğal zamanı güllələnmiş heykəlləri barədə məlumat verilib. Səyyahlar sonra Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları ilə tanış olublar.

Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə də qonaqlara məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Xarici səyahətçilər Cıdır düzündə olub, buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər. Qonaqlar daha sonra Ağdama yola düşüblər.

***

Ötən il Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə üç dəfə səfər etmişəm. Hər gəlişimdə burada inkişaf və yeniliklərin şahidi oluram.





Bu sözləri jurnalistlərə açıqlamasında səyyahlar həyatinin rəhbəri – ABŞ-ın "Most Travelled People" klubunun təsisçisi Charles Veley deyib.

"Otuz ilə yaxın davam edən işğal zamanı bu ərazilər viran qalmışdı. İndi isə biz Azərbaycan xalqının bu yerlərdə yeni binalar tikməsinin, infrastruktur yaratmasının şahidiyik. Hər səfərimdə yeni tikinti görürəm. Budəfəki səfərimdə Şuşada hotelin inşasının tamamlandığını gördüm. Çox təqdirəlayiq haldır. Zəfər yolu ilə Şuşaya gəlirdik, indi isə başqa bir yol da inşa edilir. Tunellər, körpülər... Azərbaycanlıların azad olunmuş torpaqlarda gördüyü quruculuq işləri mükəmməldir", – deyə o əlavə edib.

Azərbaycanda, ümumiyyətlə Şuşa şəhərində ilk dəfədir oluram. Şuşa şəhərinə gələrkən yolboyu gördüklərimiz – işğaldan azad olunmuş ərazilərdə aparılan sürətli bərpa-quruculuq işləri bizi heyran etdi.

Bu sözləri beynəlxalq səyahətçilər qrupuna daxil olan avstraliyalı Coko Tandicono deyib.

O, işğaldan azad edilmiş ərazilərdə törədilmiş kütləvi dağıntıların şahidi olduğunu deyib: "Şuşa qalası bərpa olunur, ümumiyyətlə, Azərbaycan hökuməti tərəfindən aparılan sürətli bərpa işləri nəticəsində şəhər öz simasını yavaş-yavaş bərpa edir", – deyə səyyah bildirib.

"Təəssüflər olsun ki, işğaldan azad olunmuş ərazilər kütləvi şəkildə minalanıb. Bu yerlərin minalardan təmizlənməsi üçün həmin ərazilərin dəqiq xəritəsi verilməlidir ki, minalardan təmizlənmə işi sürətlənsin və buraya gələn vətəndaşlar üçün də heç bir təhlükə olmasın" – bu isə finlandiyalı səyyah Karimat Divalterinin fikridir.

***

Qeyd edək ki, beynəlxalq səyahətçilər üç gün ərzində Şuşa-Ağdam, Xocavənd-Füzuli, Zəngilan-Cəbrayıl marşrutları üzrə hərəkət edəcəklər. Səfər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması baxımından müstəsna əhəmiyyət daşıyır.

Ötən il dünyanın biznes və turizm elitasını özündə birləşdirən əsas beynəlxalq səyahətçilər şəbəkələrinin – ETIC (Extremal Travellers International Congress), MTP (Most Travelled People), TCC (Travelers' Century Club), Nomadmania klublarının təsisçiləri, prezidentləri və tanınmış üzvləri səviyyəsində qrupların Qarabağ və Şərqi Zəngəzura 3 dəfə səfərləri təşkil olunub. Bu səfərlərdə 25-ə yaxın ölkədən 100-dən çox beynəlxalq səyahətçi iştirak edib.

# "Şuşa İli" – Zəfərimizin tarixi

Ağdaş RMİ Ağdaş rayon Heydər Əliyev Mərkəzində "Şuşa İli" – Zəfərimizin tarixi" adlı tədbir təşkil olunub. Çıxış edənlər "Şuşa İli" və Şuşanın mədəniyyət paytaxtı elan edilməsinin əhəmiyyətindən danışıblar.

***

Kürdəmir RMİ Beyləqan rayon MKS-nin Yuxarı Kəbirli kənd kitabxanası və kənd tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Şuşanın ədəbi mühiti" adlı tədbir keçirilib. Vətənimizin azadlığı uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə çıxış edənlər Şuşa ədəbi mühitinin çoxsaylı nümayəndələri, onların yaradıcılığı barədə geniş məlumat veriblər. Şagirdlər şuşalı şairlərin şeir və qəzəllərindən nümunələr səsləndiriblər.

***

Gəncə RMİ Goranboy rayon Uşaq Kitabxanası açıq havada "Şuşa mədəniyyət tariximizdir!" adlı kitab sərgisi təşkil edib. Sərgidə Şuşanın korifey sənətkarlarının əsərləri, qədim şəhərin tarixini və mədəniyyətini əks etdirən kitablar nümayiş olunub.

# Vətənə fəda edilən ömürlər

Şəki RMİ Səməd Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzində mədəniyyət işçisi, Vətən müharibəsi iştirakçısı Fərid Kərimovun solo konserti təşkil olunub. Konsertdə F.Kərimov "Region" qrupunun müşayiəti ilə xalq və bəstəkar mahnılarını ifa edib.

***

Masallı RMİ Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Rafail İşiyevin doğum gününə həsr olunmuş "Ana, məni bağışla" tamaşası nümayiş etdirilib. Cəlilabad Xalq teatrı aktyorlarının ifasında təqdim olunan tamaşanı Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov, rayon rəsmiləri, şəhid ailələri, qazilər və mədəniyyət işçiləri izləyiblər. Səhnə işi qəhrəman şəhidin döyüş yolundan bəhs edir.

***



Sumqayıt RMİ Sumqayıt şəhər Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi Elçin Hüseynovun doğum gününə həsr olunan "Vətənə fəda edilən ömür" adlı xatirə gecəsi keçirilib. Şəhidin ailə üzvləri, döyüş yoldaşları, şəhid anaları, mədəniyyət işçiləri və digər qonaqların iştirak etdiyi tədbirdə vətənpərvərlik ruhunda mahnılar səsləndirilib.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin 2 saylı kitabxana filialı Azərbaycanın Milli Qəhrəmanı, şəhid kapitan Məhərrəm Seyidovun anadan olmasının 70 illiyi ilə əlaqədar "Vətən sizi unutmur" adlı tədbir keçirib. Çıxış edənlər Milli Qəhrəmanın həyatından, keçdiyi döyüş yolundan söhbət açıblar. Qeyd olunub ki, M.Seyidov 1952-ci il sentyabrın 7-də Şərur rayonunun Alışar kəndində anadan olub. Şərur Rayon Daxili İşlər Şöbəsində baş inspektor vəzifəsində çalışıb. O, 1990-cı il yanvarın 19-da Kərki kəndində gedən döyüşlərdə düşmənin mühasirəsinə düşmüş döyüş yoldaşlarını xilas edərkən qəhrəmancasına şəhid olub. Şərur rayonunun Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə Məhərrəm Seyidov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

# Doğma yurda qayıdış davam edir

*əvvəli səh. 1-də*



Sentyabrın 10-da isə 13 ailə (62 nəfər) kəndə gələcək. Onun sözlərinə görə, ilk mərhələdə köçürülən əhalinin məşğulluq məsələləri deməks olar ki, həll edilib. "Buradakı insanların həyat şəraitini yaxşılaşdırmaq üçün müxtəlif xidmət sahələri üzrə infrastruktur obyektləri istifadəyə verilir. Artıq "ASAN Xidmət" və DOST mərkəzləri, poçt, bank xidmətləri, bundan başqa, tibb məntəqəsi, uşaq bağçası, yanacaqdoldurma məntəqəsi, müasir standartlara cavab verən ət kəsimi məntəqəsi və s. fəaliyyət göstərir. Məktəbimiz də bu ilin sentyabr ayında ilk müəllim və şagirdlərini qarşılayacaq", – deyə xüsusi nümayəndə bildirib.

# Qarabağın məşhur şairələri haqqında kitabın təqdimatı keçirilib

Bərdə RMİ Bərdə rayon Mədəniyyət Mərkəzində "Qarabağdan doğan Günəş və Ay – Xurşidbanu Natəvan və Fatma xanım Kəminə" kitabının təqdimatı keçirilib. Türkiyədə işıq üzü görən kitabın müəllifləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərlidir.

Təqdimatda Milli Məclisin deputatları Qənirə Paşayeva, Fatma Yıldırım, şəhid ailələri, qazilər, Bərdə, Tərtər, Yevlax rayonlarından, Mingəçevir şəhərindən olan mədəniyyət işçiləri və digər qonaqlar iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Bərdə şəhərindəki Şəhidlər xiyabanını ziyarət edərək şəhidlərin məzarı önünə gül dəstələri düzüblər.

Sonra Mədəniyyət Mərkəzində davam edən tədbirdə Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova çıxış edərək XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ictimai xadim Xurşidbanu Natəvanın zəngin bədii yaradıcılığından söz açıb.



Tədbirdə qeyd olunub ki, nəşrin ilk təqdimatı Ankarada – TÜRKSOY-un qərargahında keçirilib. Ölkəmizdə isə ilk təqdimat Bərdədə reallaşır.

Kitabda Xurşidbanu Natəvan və Fatma xanım Kəminənin bioqrafiyaları və dünyagörüşləri, eləcə də bədii yaradıcılıqlarından nümunələr əksini tapıb.

# Bölgələrin mədəni həyatı: müxtəlif səpkili tədbirlər



Sabirabad Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyindəki uşaq musiqi məktəbləri üzrə 2021-2022-ci tədris ilini bitirərək orta ixtisas və ali təhsil ocaqlarının musiqi ixtisasına qəbul olunan məzunlarla görüş keçirilib. RMİ-nin rəisi Fərid Qurbanzadə çıxış edərək məzunlara təhsillərində uğurlar arzulayıb.

***

Masallı RMİ Yardımlı rayon MKS-nin Mərkəzi Kitabxanasında Yusif Vəzir Çəmənzəminlinin 135 illiyi ilə əlaqədar kitab sərgisi təşkil edilib.

***

Bərdə RMİ Tərtər rayon Heydər Əliyev Mərkəzində narkomaniyaya qarşı mübarizə ilə bağlı "Ağ ölüm – əsrin bəlası" adlı tədbir təşkil edilib. Mərkəzin direktoru Səlimə Yusibova və digər əməkdaşlar çıxış edərək yeniyetmə və gənclərin narkotik asılılığı və digər zərərli vərdişlərdən qorunması, onların savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi istiqamətində ölkədə həyata keçirilən tədbirlər haqqında məlumat veriblər.

***

Biləsuvar RMİ Salyan rayon Mədəniyyət Mərkəzində seminar təşkil olunub. Mərkəzə tabe mədəniyyət müəssisələrinin rəhbərləri və əməkdaşlarının qatıldığı seminarda yeni mövsümdə keçiriləcək mədəni tədbirlər barədə məlumat verilib.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin 4 saylı kitabxana filialı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 881-ci ildönümü ilə əlaqədar "Azərbaycan poeziyasının sönməz günəşi" başlıqlı sərgi təşkil edib.

***



Ağdaş RMİ Zərdab rayon MKS-nin Mərkəzi Kitabxanasında görkəmli yazıçı, diplomat Yusif Vəzir Çəmənzəminlinin (1887-1943) 135 illik yubileyi münasibətilə "Qaranlıqlar içində közərən Çəmənzəminli" adlı tədbir keçirilib. Çıxışlarda qeyd edilib ki, Y.V.Çəmənzəminlinin qələmindən çıxmış ictimai-siyasi, tarixi məzmunlu əsərlər siyasi düşüncə tariximizin maraqlı səhifələrindən sayılır. Sonra tədbir iştirakçıları yazıçının həyat və yaradıcılığını əks etdirən "Yusif Vəzir Çəmənzəminli – 135" başlıqlı kitab sərgisi ilə tanış olublar.

***



Kürdəmir RMİ Kürdəmir rayon MKS-nin Uşaq şöbəsində "Uşaqlar bizim gələcəyimizdir!" adlı tədbir keçirilib. Kürdəmir Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə keçirilən tədbirdə məktəblilər vətənpərvərlik mövzusunda şeirlər səsləndirib, milli rəqslərimizi ifa ediblər.

***

Ağstafa RMİ Ağstafa rayon Mərkəzi Kitabxanası və rayon Gənclər evinin birgə təşkilatçılığı ilə "Vətənpərvər gənclər işıqlı sabahımızdır!" adlı kitab sərgisi təşkil edilib. Sərgi zamanı kitabxananın əməkdaşı Qönçə Hüseynova ölkəmizin gələcəyi olan gənclərin hərtərəfli inkişafı məqsədilə həyata keçirilən tədbirlərdən və kitabxanaların qarşısında duran vəzifələrdən danışıb.

Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası könüllü gənclərlə birgə "Unutma, hər sirrin açarı kitablardadır!" adlı tədbir keçirib. Tədbirdə kitabxananın Metodika və biblioqrafiya şöbəsinin müdiri Fatma Hüseynova çıxış edərək mənəvi qida olan kitabın təbliği üçün kitabxanaçıların qarşısında duran vəzifələr haqqında söz açıb.

**Hazırladı: N.Məmmədli**

# İsmayıllıda "Xan qızı – Natəvan" tamaşası nümayiş olunub

İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində Xurşidbanu Natəvanın 190 illiyi münasibətilə Xalq yazıçısı İlyas Əfəndiyevin "Natəvan" pyesinin II hissəsinin motivləri əsasında hazırlanan "Xan qızı – Natəvan" tamaşası nümayiş olunub.



Tamaşanın mövzusu İbrahim xanın nəvəsi, axırıncı Qarabağ xanı Mehdiqulu xanın qızı şairə Natəvanın həyatına həsr olunub. Burada tarixi hadisələrin timsalında xalqın taleyi, azadlığı və birliyi ideyası ön plana çəkilib. Natəvanın şəxsi həyatı və ictimai fəaliyyəti bir nöqtədə birləşir: o, dərin vətənpərvərdir. Natəvan kübar cəmiyyəti təmsil etsə də, möhkəm tellərlə sadə insanlara bağlıdır. Xalqın taleyi Natəvanı düşündürən əsas məsələdir. O, bütün həyatını xalqın haqqının tanınması, sadə zəhmət adamlarının vəziyyətinin yüngülləşdirilməsi uğrunda mübarizəyə həsr edir.

Tamaşa izləyicilər tərəfindən alqışlarla qarşılanıb.

# Rusiyalı tarixçi Qəbələ qoruğunda

Rusiyanın Sankt-Peterburq şəhərindən olan tarixçi İvan Asseyev Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda və Qəbələ Arxeoloji Mərkəzində olub.



Qəbələ rayonunda fəaliyyət göstərən "Savalan ASPİ Winery" MMC-nin dəvətlisi olaraq bölgəyə gələn rusiyalı tarixçi əvvəlcə qoruğun Səlbir və Qala ərazilərində aparılmış arxeoloji qazıntı sahələri ilə tanış olub. Ona ərazidə dövri olaraq aparılan arxeoloji tədqiqatlar barədə ətraflı məlumat verilib.

Sonra qonaq Qəbələ Arxeoloji Mərkəzin sərgi salonlarında nümayiş etdirilən tarixi eksponatlarla tanış olub. Rusiyalı qonaq mərkəzin akt zalında "Qafqaz Albaniyasının paytaxtı – Qəbələ" filminə də baxıb.

Rusiyalı tarixçi Qəbələ Dövlət Tarix-Bədii Qoruğundan xoş təəssüratlarla ayrılıb.

# Musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu

## Müsabiqənin müsahibə mərhələsinə sentyabrın 9-da yekun vurulacaq





Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi sistemində bədii təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsi, bilikli və bacarıqlı ixtisaslı kadrların bərabərhüquqlu, şəffaf və sağlam rəqabət şəraitində seçilib yerləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu Qaydaları" təsdiq edilib.

Qaydalara əsasən, məktəb və mərkəzlərə müəllimlərin işə qəbulu müsabiqə əsasında həyata keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarət olmaqla iki mərhələdə təşkil olunur.

Test imtahanı avqustun 7-də Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə birgə keçirilib. Test imtahanında iştirak etmək üçün qeydiyyatdan keçən 1992 namizəddən 1709 nəfər imtahanda iştirak edib, onlardan 482 nəfər tələb olunan keçid balını toplayaraq müsabiqənin müsahibə mərhələsində iştirak hüququ qazanıb. Onlardan da 383 nəfər Mədəniyyət Nazirliyi tərəfindən elan edilən vakant vəzifələrə qeydiyyatdan keçərək namizədliyini təsdiq edib.

Sentyabrın 5-dən Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu ilə bağlı müsabiqənin müsahibə mərhələsinə başlanılıb. 6 müxtəlif ixtisas üzrə komissiyalar fəaliyyət göstərir.

Müsahibələrdə namizədlər uzun müddət müvafiq sahədə peşəkar təcrübəyə malik səriştəli mütəxəssislərdən təşkil edilmiş komissiya tərəfindən qaydalarda qeyd edilən meyarlar üzrə qiymətləndirilir, mümkün 15 baldan 10 və daha yüksək bal toplayan namizədlər müsahibədə uğur qazanmış hesab edilirlər. Müsahibə mərhələsinin sentyabrın 9-da yekun vurulması nəzərdə tutulub. Müsahibələr başa çatdıqdan sonra 7 iş günü ərzində namizədlərə nəticələr barədə məlumat veriləcək.

## "Cadenza" orkestri Beynəlxalq Muğam Mərkəzində konsert verəcək



Sentyabrın 20-də "Cadenza" orkestri (Cadenza Contemporary Orchestra) Beynəlxalq Muğam Mərkəzində təşkil olunacaq konsert proqramı ilə yeni mövsümə başlayır.

Mövsümün ilk konsertində orkestr tərəfindən Firəngiz Əlizadənin "Crossing II", Azər Dadaşovun 14 saylı Simfoniya "Angel's day" (ilk dəfə) və Firudin Allahverdinin balaban və ansambl üçün "Barokko" konserti (ilk dəfə) ifa olunacaq.

Qeyd edək ki, konsert Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı (18-26 sentyabr) çərçivəsində reallaşacaq.

# Xətainin anadilli "Divanı"nın Daşkənd nüsxəsi çapdan çıxıb

Son illər Azərbaycanla Özbəkistan arasında əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf edir. Bu əməkdaşlıq mənzərəsində mədəniyyət sahəsi xüsusi yer tutur. İki ölkə arasında bağların daha da möhkəmlənməsinə Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) də mühüm töhfə verir. Mərkəz tərəfindən bu məqsədlə müxtəlif layihələr həyata keçirilir.

AMM tərəfindən Özbəkistan Milli Elmlər Akademiyasının Əbu Reyhan əl-Biruni adına Şərqşünaslıq İnstitutunda saxlanılan Azərbaycana dair əlyazmaların müəyyənləşdirilməsi və onlara dair araşdırma layihəsi də bu məqsədə xidmət edir.

Layihə çərçivəsində azərbaycanlı gənc alim, filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə tərəfindən aparılan araşdırmalarda Azərbaycan ədəbiyyatına dair çoxsaylı əlyazma nüsxələri aşkarlanıb.

Qeyd olunan nümunələr arasında böyük Azərbaycan hökmdarı, dahi şair Şah İsmayıl Xətainin anadilli "Divan"ının Daşkənd nüsxəsi transfoneliterasiya edilərək Azərbaycan Mədəniyyət Nazirliyi və AMM-in layihəsi ilə nəfis şəkildə nəşr olunub.




1535-ci ilə aid incə nəstəliq xətti ilə köçürülmüş "Divan"ın bu əlyazma nüsxəsi təkcə sərkərdə-şairin əsərlərinin əhəmiyyəti və qədimliyi baxımından deyil, həmçinin Azərbaycan kitabının ən gözəl, unikal bir nümunəsi olması yönündən də dəyərli mənbədir.

Xəttatlıq məktəbimizin görkəmli nümayəndələrindən biri Şah Mahmud Nişapuri tərəfindən yazılan əlyazmada Azərbaycan xəttatlığının, nəqqaşlığının, klassik kitabişləmə sənətinin dəyərli elementləri öz əksini tapıb.

Xətai "Divan"ının Daşkənd nüsxəsinin faksimileli nəşri mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin dünyada tanıdılması öz keçmişimizə, milli dəyərlərimizə sahib çıxmaqla yanaşı, sözügedən zəngin irsimizin gələcək nəsillərə ötürülməsi, təbliği istiqamətində olduqca əhəmiyyətlidir.

Nəşrə ön söz yazan mədəniyyət naziri Anar Kərimov Azərbaycan xalqının şanlı dövlətçilik tarixinə, zəngin mədəniyyət və incəsənətə, bütün dünya ədəbiyyatına təsir edə biləcək qiymətli ədəbiyyata sahib olduğunu qeyd edir. Vurğulanır ki, Şah İsmayıl Xətai klassik Azərbaycan poeziyasının istedadlı şairi, incəsənət bilicisi olaraq xalqımıza Azərbaycan dilində ən gözəl incilərdən ibarət poetik nümunələr miras qoyub. Söz, sənət ustadı olan böyük sərkərdənin qələmindən süzülüb gəlmiş poetik nümunələr neçə yüzillərdir ki, klassik poeziyamızda, aşıq yaradıcılığında, musiqimizdə, incəsənətimizdə öz dərin təsirini göstərir. Şairin yaradıcılığı Azərbaycan dilinin tarixi inkişaf mərhələsini öyrənən dilçi alimlərimiz üçün zəngin mənbədir.

Qeyd edək ki, Şah İsmayıl Xətainin anadilli "Divan"ının nüsxələri Bakı, Sankt-Peterburq, Paris, London, Berlin, Vatikan, Daşkənd, İstanbul, Qahirə, Tehran, Təbriz, Ərdəbil və s. şəhərlərdə qorunub saxlanılır. Bu əlyazmalardan ikisi Özbəkistan Milli Elmlər Akademiyası Əbu Reyhan əl-Biruni adına Şərqşünaslıq İnstitutunda qorunur ki, onlardan da biri əsas nüsxədir. Həcmi 84 vərəq 168 səhifədir. Əlyazmanın mətni qızılı və mavi xətlərlə haşiyələnib, qara mürəkkəblə, başlıqlar qızılı və mavi mürəkkəblə, müəllifin təxəllüsü isə hər yerdə qızılı mürəkkəblə işlənilib. Xətai əlyazmaları içərisində xüsusi seçilən anadilli "Divan"ın Daşkənd nüsxəsi alimlər tərəfindən yüksək qiymətləndirilib. "Şah İsmayıl Xətainin anadilli "Divan"ının Daşkənd nüsxəsi"nin nəşri klassik Azərbaycan kitab mədəniyyətinin ən gözəl, zərif və nəfis incilərindəndir.

Azərbaycan Mədəniyyət Mərkəzindən bildirilib ki, ölkəmizə dair qiymətli əlyazmaların tədqiqi və nəşrini həyata keçirmək üçün uzun müddətdir ki, mütəxəssislərlə birgə sistemli iş aparılır. Xətai yaradıcılığı ilə yanaşı Azərbaycan poeziyasının korifeyləri Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi klassiklərimizin yaradıcılığı ilə də bağlı Özbəkistanda çoxsaylı əlyazma nüsxələri müəyyənləşdirilib və gələcəkdə onlara dair tədqiqat işləri, layihələr həyata keçiriləcək.

AMM-dən o da bildirilib ki, nəşrin Bakıda və Daşkənddə geniş təqdimat mərasimlərinin keçirilməsi planlaşdırılır.

## "Tarixə dair əski çap kitabları" kataloqu işıq üzü görüb

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının qərarı ilə institut materialları əsasında hazırlanmış "Tarixə dair əski çap kitabları" kataloqu işıq üzü görüb.

Əlyazmalar İnstitutunun Çap kitablarının tədqiqi şöbəsinin baş elmi işçisi, tarix elmləri doktoru, dosent Tahirə Həsənzadənin tərtib edib nəşrə hazırladığı kataloqda Əlyazmalar İnstitutunun əski çap kitabları fondunda mühafizə olunan Azərbaycan, türk, fars, ərəb, rus və digər dillərdə, o cümlədən Avropa dillərində 600 kitabın izahlı təsviri verilib.

Yeni nəşrin elmi məsləhətçisi Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli, elmi redaktoru Çap kitablarının tədqiqi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Cavid Cəfərov, ərəbdilli kitabların xülasəsini hazırlayan Əlyazmaların və əski çap kitablarının tərcüməsi şöbəsinin baş elmi işçisi, fəlsəfə elmləri doktoru, dosent Zəkiyyə Əbilovadır.

# Bolqarıstanda festivalda Azərbaycan mədəniyyəti ilə bağlı təqdimat

Bolqarıstanın Küstendil şəhərində "Struma səhnələri" beynəlxalq festivalı çərçivəsində Azərbaycan mədəniyyəti təqdim olunub. Təqdimat Bakı Slavyan Universitetinin Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən "Azərbaycan dili və mədəniyyəti mərkəzi"nin təşəbbüsü və Küstendil meriyası, "Presto" musiqi evi və "Bratstvo – 1869" icma mərkəzinin təşkilatçılığı ilə gerçəkləşib.

"Bratstvo – 1869" icma mərkəzində Azərbaycana həsr olunmuş uşaq rəsm sərgisi təşkil edilib.

Festivalın direktoru Nadejda Dimitrova giriş sözündə iştirakçıları təqdim edib, festivalın məqsədindən danışıb.



Sofiya Universitetinin nəzdində "Azərbaycan dili və mədəniyyəti mərkəzi"nin müdiri Sofiya Şıqayeva-Mitreska təqdim olunan rəsmlərin bolqar uşaqların əlləri ilə yaradıldığını və yurdumuzun rəngarəngliyini tanıtmaq məqsədilə nümayiş etdirildiyini bildirib.

Mərkəzin müdiri cari il Azərbaycan və Bolqarıstan arasında diplomatik münasibətlərin 30 illiyinin qeyd edildiyini də vurğulayıb və Sofiyada keçirilən mədəniyyət tədbirlərində "Azərbaycan dili və mədəniyyəti mərkəzi"nin iştirakının dostluq münasibətləri üçün simvolik olmasını qeyd edib.

Sonra Damyan Mitreski Azərbaycan dilində Mina Rəşidin "Ana dili" şeirini söyləyib. Qonaqlar üçün çay süfrəsi təşkil edilib və mərkəzin müdiri onları Azərbaycanın adət-ənənələri ilə yaxından tanış edib.

Küstendil şəhərində "Struma səhnələri" festivalı sentyabrın 17-dək davam edəcək.

## "Kitabi-Dədə Qorqud" Pakistanda urdu dilində nəşr ediləcək

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası arasında əməkdaşlıq əlaqələri konkret layihələr üzrə uğurla davam etdirilir.

Pakistan Ədəbiyyat Akademiyasının prezidenti, professor Yusif Huşkun bu ilin iyul ayında ölkəmizə səfəri çərçivəsində AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli ilə aparılan danışıqlar zamanı Azərbaycan xalqının ədəbi-mədəni pasportu olan "Kitabi-Dədə Qorqud" eposunun Pakistanda urdu dilində nəşr edilməsi barədə razılığa gəlinib.

Ədəbiyyat İnstitutundan bildirilib ki, həmin razılığa əsasən, "Kitabi-Dədə Qorqud" eposu Pakistan Ədəbiyyat Akademiyasının əməkdaşları tərəfindən urdu dilinə tərcümə olunub.

Nəşr üçün professor Yusif Huşkun ön söz, akademik İsa Həbibbəyli isə "Azərbaycan xalqının Ata kitabı" adlı geniş məqalə yazıb.

Eposun bu ilin oktyabrında İslamabadda çapdan çıxması nəzərdə tutulur.

Qeyd edək ki, "Kitabi-Dədə Qorqud" eposu 2021-ci ildə akademik İsa Həbibbəylinin geniş müqəddiməsi ilə İtaliyanın "Sondro Teti" nəşriyyatı tərəfindən çap olunub.

## "Nənəmin sandığından..."

### Xalça Muzeyində Qarabağın milli geyimləri ilə bağlı tədris proqramı həyata keçiriləcək



Azərbaycan Milli Xalça Muzeyinin Uşaq şöbəsi böyük maraqla qarşılanan "Nənəmin sandığından "fashion show" layihəsi çərçivəsində üçaylıq tədris proqramını yenidən həyata keçirəcək.

Muzeydən bildirilib ki, proqram müddətində iştirakçılar Qarabağa aid milli geyimlər haqqında nəzəri biliklərə, praktik bacarıqlara yiyələnəcəklər. Tədris proqramını bitirənlərə sertifikatlar təqdim ediləcək və onların hazırladıqları geyimlərdən ibarət moda nümayişi təşkil olunacaq.

Azərbaycan və rus dillərində keçiləcək dərslərə qatılmaq istəyən 11-18 yaş arası qızlar və oğlanlar sentyabrın 30-dək qeydiyyatdan keçməlidirlər.

Layihə haqqında ətraflı məlumat almaq və qeydiyyatdan keçmək üçün (050) 363 43 55 və (055) 262 81 84 nömrələri ilə əlaqə saxlamaq olar.

## Nazim Hikmətin 120 illiyi münasibətilə

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu tərəfindən keçiriləcək "Nazim Hikmət – 120" adlı respublika elmi konfransına tezis qəbul edilir.

İnstitutdan bildirilib ki, bu ilin oktyabrında keçiriləcək elmi konfrans türk ədəbiyyatının görkəmli nümayəndəsi və türk sərbəst şeirinin yaradıcısı, şair, yazıçı-dramaturq Nazim Hikmətin (1902-1963) anadan olmasının 120 illiyinə həsr edilib. Konfrans "Nazim Hikmət dövründə türk ədəbiyyatı", "Nazim Hikmət və Azərbaycan", "Nazim Hikmət yaradıcılığının təsir dairəsi", "Nazim Hikmət fikir və sənət aləmində" mövzularını əhatə edir.

İştirak etmək istəyənlər tezislərini 2022-ci il oktyabrın 1-dək nazim.hikmet120@mail.ru elektron ünvanına göndərməlidir. Tezislər Azərbaycan, türk, rus, ingilis dillərində qəbul olunur.

## ATMU-nun məzunları ixtisaslı kadr kimi fəaliyyətə cəlb olunublar




Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) məzunlarının doğma ali təhsil müəssisəsinin müəllim-inzibati heyətində təmsil olunmaq imkanları ənənəyə çevrilib. Hazırda ATMU-nun çoxsaylı məzunu universitetin bölmə və şöbələrində rəhbər və cavabdeh kadr statusunda fəaliyyət göstərirlər.

Bu günlərdə isə universitetin daha 2 məzunu İranə Məmmədcanova və Aytac Babayeva Beynəlxalq əlaqələr şöbəsində fəaliyyətə başlayıblar.

2016-2017-ci tədris ilində Türkiyənin Akdeniz Universitetində "Mövlanə" mübadilə proqramı çərçivəsində təhsil almış İranə Məmmədcanova ATMU-nun Beynəlxalq əlaqələr şöbəsində Türkiyə təhsil proqramları üzrə koordinator, Aytac Babayeva isə Avstriya-Azərbaycan Turizm Proqramının ATMU üzrə koordinatoru təyin olunub.

## 771 milyon insan baza savadına malik deyil

Hər il sentyabrın 8-i Beynəlxalq Savadlılıq Günü kimi qeyd olunur. UNESCO tərəfindən 1967-ci ildən təsis edilən günün məqsədi savadlılığın insanlar, icmalar və ümumilikdə cəmiyyət üçün faydasına diqqəti cəlb etməkdir.

UNESCO-nun saytında yer alan məlumata görə, bu il əlamətdar gün savad əldəetmə məkanlarının transformasiyası devizi altında qeyd olunur.

Baş direktor Odre Azulenin Beynəlxalq Savadlılıq Günü münasibətilə ictimaiyyətə müraciətində qeyd olunur ki, bu gün müasir dövrdə insanın fundamental hüquqü kimi savadlılığın əhəmiyyətini geniş ictimaiyyətə çatdırmaq üçün yaxşı imkan yaradır. Əgər 1979-cu ildə insanların yalnız 68 faizi yazıb-oxumağı bacarırdısa, 2020-ci ildə bu göstərici 86,7 faizə çatıb. Lakin bu irəliləyişə baxmayaraq, dünyada 771 milyon gənc və yaşlı insan hələ də baza savadına malik deyil. Onların 60 faizi qızlar və qadınlardır.

Müraciətdə vurğulanır ki, COVID-19 pandemiyası ilə bağlı məktəblərin bağlanması və qeyri-sabit vəziyyət də təhsilalanların biliklərinin unudulmasına və məktəbdən uzaqlaşmasına səbəb olub. Bu, əhalinin həssas qrupundan olan insanlar üçün xüsusən aktualdır. UNESCO və ona üzv dövlətlər son onilliklərdə əldə edilmiş nailiyyətləri möhkəmləndirmək üçün ikiqat səy göstərirlər.

№66 (1939)
9 sentyabr 2022
www.medeniyyet.az

## Əməkdar rəssam Asif Azərelli vəfat edib



Əməkdar rəssam, Azərbaycan Rəssamlıq Akademiyasının dosenti Asif Azərelli sentyabrın 4-də, 76 yaşında vəfat edib.

Asif Hüseyn oğlu Rzayev (Asif Azərelli) 19 iyul 1946-cı ildə Bərdə rayonunun Uğurbəyli kəndində anadan olub. 1970-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini, 1980-ci ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasını bitirib.

Keçmiş ittifaq və beynəlxalq miqyaslı sərgilərin iştirakçısı olub. 1976-cı ildə Azərbaycan Rəssamlar İttifaqının mükafatına layiq görülüb. Rəssamın "Dədə Qorqud", "Qoca qarabağlı" və s. əsərləri xüsusilə məşhurdur.

Allah rəhmət eləsin.

## Tərcüməçi-yazar Səyavuş Məmmədzadə dünyasını dəyişib



Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Səyavuş Məmmədzadə sentyabrın 3-də, 85 yaşında vəfat edib.

Səyavuş Məmmədzadə 2 oktyabr 1935-ci ildə Bakıda anadan olub. BDU-nun Filologiya fakültəsində ali təhsil alıb. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun bədii tərcümə bölməsini bitirib.

"Molodyoj Azerbaydjana" qəzetində mütərcim, ədəbi işçi, Azərbaycan Dövlət Nəşriyyatında redaktor, "Literaturnı Azerbaydjan" jurnalında ədəbi işçi, tənqid və publisistika şöbəsinin müdiri işləyib. Azərbaycan ədəbiyyatından rus dilinə, rus, bolqar, Ukrayna, Polşa ədəbiyyatından Azərbaycan dilinə tərcümələr edib. Povest, hekayə və şeirlər toplularının müəllifidir.

Allah rəhmət eləsin.

# Rus çarını, İran şahını heyran edən səs sahibi

**Şuşanın simaları**

O, gənc ikən bənzərsiz səsi və ifaçılıq mədəniyyəti ilə dövrün tanınmış sənət adamlarını heyran edib, yüksək mənsəb sahiblərinin hörmət və ehtiramını qazanıb. "Şuşanın simaları" rubrikasında bu dəfə sənət şöhrəti qala-şəhərimizdən başlayıb qonşu ölkələrə yayılan görkəmli xanəndə Əbdülbaqi Zülalov – Bülbülcan haqqında söz açacağıq.



Əbdülbaqi Kərbəlayı Əli oğlu Zülalov 1841-ci ildə Şuşa şəhərində dünyaya göz açıb. Uşaq yaşlarından şaqraq və bəlağətli səsi ilə şəhərin musiqi mühitində diqqət çəkməyə başlayır. İlk musiqi təhsilini Azərbaycan muğam sənətinin inkişafında mühüm rol oynamış Xarrat Qulunun məktəbində alır. Təhsilini başa vurduqdan sonra tarzən Mirzə Sadıqcan onu öz musiqiçi dəstəsinə qəbul edir. Bərabər Şuşa, Şəki, Şamaxı və Gəncə şəhərlərində imkanlı ailələrin məclislərinə, el şənliklərinə dəvət olunur. Xanəndə kimi müasirlərinin, o cümlədən şairə Xurşidbanu Natəvanın da rəğbətini qazanır. Onun bağında qurulan məclislərdə, xüsusilə xan qızının Şuşaya su çəkilməsi münasibətilə 18 avqust 1873-cü ildə təşkil olunan xalq şənliyində yaxından iştirak edir.

Əbdülbaqi Zülalov 1875-ci ildə Tiflisə köçür. Araşdırmalarda qeyd edilir ki, o zaman Cənubi Qafqazın mədəniyyət mərkəzi sayılan bu şəhərdə xeyriyyə məqsədilə tez-tez konsertlər verilirdi. Həmin konsertlərdə yerli xanəndələrlə yanaşı, məşhur rus, italyan musiqiçiləri də çıxış edirdilər. Gənc Əbdülbaqi Tiflisdə ilk dəfə böyük tarzən Sadıqcanın müşayiəti ilə oxuyur. Elə ilk çıxışı ilə musiqisevərlərin ruhunu oxşayır. Ustadları ona parlaq gələcəyi üçün bəzi dəyərli məsləhətlər verirlər. Bildirirlər ki, gürcü dilini də öyrənib oxusan, bu xalqın da qəlbinə yol taparsan. O, çox keçmir gürcü dilini öyrənir. Bənzərsiz ifası ilə gürcü dinləyicilərin də qəlbinə yol tapır. Qısa vaxtda elə bir şöhrət qazanır ki, bütün Tiflisdə onu "Bülbülcan" deyə çağırırlar.

Musiqişünas, Əməkdar incəsənət xadimi Firidun Şuşinski araşdırmasında yazır ki, Bülbülcan Tiflisdə yaşadığı müddətdə (1875-1905) bir neçə musiqi dəstəsi yaradır. Tarzən Sadıqcanla birlikdə şəhərdə yaşayan yoxsul müsəlmanların xeyrinə təşkil olunan konsertlərdə yaxından iştirak edir. Tiflisdə çıxan "Ziya" qəzeti onların konsertləri haqqında tez-tez xəbərlər dərc edir. Belə konsertlərin biri haqqında qəzetin verdiyi elanda yazılıb: "Bu yaxın vaxtda füqəra və miskinlərdən ötrü şəhərdə bina olunan İran xəstəxanasının sərmayəsinə qüvvət və mənfəət vermək qəsdilə Tiflisin teatr imarətində ibrətnüma və fərəh-əfza, növbənöv görməli və eşitməli tamaşalar olacaqdır. Tiflis əhlinin dildadəsi olan xanəndə və sazəndələrdən Əbdülbaqi və Sadıq dəxi hazır olacaqdır". "Qafqaz" qəzetində verilən bir elanda isə belə deyilirdi: "Bu gün – 22 iyun 1886-cı ildə Arsurini teatrının binasında həvəskarlar tərəfindən tatar dilində M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası oynanılacaq. Tamaşanın fasilələrində Əbdülbaqinin sazəndə dəstəsi çalacaqdır".

Görkəmli xanəndənin bənzərsiz sənəti haqqında el arasında rəvayətlər də dolaşıb. Deyilənə görə, bir gün Tiflisin ən qaynar küçəsi olan Qolovinski (indiki Rustaveli) küçəsindən əynində çərkəzi çuxalı, atlas arxalıqlı, başı gümüşü papaqlı, çiyni aynalı tüfəngli və qolunun üstündə qızılquş olan bir atlı gəlib keçir. Camaat bir anlıq ayaq saxlayıb heyrətlə ona tamaşa edir. İncəayaqlı Qarabağ atının üstündəki adamın kimliyi onları maraqlandırır. Axı Qolovinski küçəsində at sürməyə yalnız Qafqaz canişininin və onun ən yaxın adamlarının ixtiyarı vardı. Bu, azərbaycanlı xanəndə Bülbülcan idi. Həmin hadisənin isə maraqlı bir tarixçəsi var. Rus çarı III Aleksandr 1888-ci ilin payızında ailəsi ilə Qafqaza istirahətə gəlir. Çarın Tiflisə gəlişi münasibətilə şəhərin ən gözəl guşəsi olan "Müctəhid bağı"nda böyük şənlik təşkil olunur. Şənliyə Bülbülcan da dəvət edilir. Cabbar Qaryağdıoğlu xatirələrində yazır ki, məclisdə çarın sağlığına badə qaldırılarkən Bülbülcan elə bir zəngulə vurur ki, III Aleksandr və arvadı onun səsinə heyran qalırlar. Bundan sonra çar Qafqazda olduğu müddətdə Bülbülcan onun məclislərində yaxından iştirak edir. Çar Sankt-Peterburqa qayıdarkən Qafqaz canişininə tapşırır ki, Əbdülbaqinin nə arzusu olsa yerinə yetirsin. Canişin Əbdülbaqini çağırır və çarın tapşırığını ona bildirir. Xanəndə xahiş edir ki, ona bir aynalı tüfəng bağışlasın və Qolovinski küçəsindən isə at sürməyə icazə versin. Canişin onun xahişini yerinə yetirir...

1900-cü ilin mayında İran hökmdarı Müzəffərəddin şah Tiflisə gəlir. Onun gəlişi münasibətilə saray bağında böyük məclis qurulur. Məclisə dəvət olunan Əbdülbaqi böyük şövqlə oxuyur. İfaya heyran qalan Müzəffərəddin şah onu xanəndəlik hünərinə görə "Şiri-Xurşid" ordeni ilə təltif edir.

Mənbədə o da göstərilir ki, 1904-cü ildə I Nikolayın qardaşı Knyaz Mixail Romanov Tiflisdə olarkən onun şərəfinə şəhərin "Edem" bağında ziyafət təşkil edilir. Həmin ziyafətə Bülbülcan da dəvət olunur. Onun gözəl ifasından heyrətlənən knyaz barmağındakı 4 karatlıq brilyant üzüyü çıxarıb xanəndənin barmağına taxır.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra Əbdülbaqi Zülalov Bakıya gəlir. 1923-cü ildə o, muğamatdan dərs demək üçün Üzeyir Hacıbəylinin təşkil etdiyi Azərbaycan Dövlət Türk Musiqi Məktəbinə dəvət edilir. Yaşının çox olmasına baxmayaraq, gənc xanəndələrin hazırlanmasında xüsusi səy göstərir. Dahi Üzeyir bəy məqalələrinin birində yazıb: "...Tarzən Sadıqcanın, xanəndə Əbdülbaqinin adları və sədaları Qafqazın hər bir yerində məşhur olub beynəlmiləl bir mahiyyətdə ad qazanıblar".

Azərbaycan musiqi sənətinə 70 il xidmət göstərən, onun inkişafına töhfələr verən ustad sənətkar 1927-ci ilin avqustunda, 86 yaşında vəfat edib.

**Savalan Fərəcov**

# Xan qızı soraqlı eksponatlar

## Milli Azərbaycan Tarixi Muzeyində Natəvana məxsus nadir əl işləri və əşyalar qorunur

Görkəmli şairə, parlaq bədii istedad sahibi Xurşidbanu Natəvanın (1832-1897) ədəbiyyat və mədəniyyət salnaməmizdə xüsusi yeri var. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı sayəsində Natəvan dövrün mədəni mühitinin formalaşmasına mühüm təsir göstərib. Onun Şuşada təşkil etdiyi "Məclisi-üns" ədəbi məclisi də Qarabağda ədəbiyyat və mədəniyyətin inkişafında aparıcı rol oynayıb. Şairə istedadlı gəncləri də məclisə dəvət edib, onların yetişməsinə öz töhfəsini verib.

Xalqın sevə-sevə "Xan qızı" deyə müraciət etdiyi Natəvan geniş istedada sahib bir şəxsiyyət olub. Çoxşaxəli yaradıcılığına nəzər saldıqda onu şairliklə yanaşı, rəssam, tikmə ustası, xalçaçı simasında da görürük.

Bu günlərdə Xan qızının Milli Azərbaycan Tarixi Muzeyində qorunan əl işləri və ona aid məmulatlarla tanışlıq üçün muzeyə yollandıq. Muzeyin baş mühafizi, tarix üzrə fəlsəfə doktoru Məhfuzə Zeynalova bildirdi ki, muzeydə qorunan Xan qızına aid tikmə və əl işləri onun incə zövqə, yüksək sənətkarlıq qabiliyyətinə malik olmasına əyani sübutdur. Natəvanın 180 illik yubileyi ilə əlaqədar, 2012-ci ildə muzeyin hazırladığı bukletdə şairənin əl işləri – tikmə və rəsmləri haqqında məlumatlar verilib. 190 illik yubileylə bağlı isə muzey noyabr ayında "Şuşa İli" çərçivəsində geniş sərgi təqdim edəcək. Sərgidə məxsusi Natəvan guşəsi ziyarətçilərin marağına səbəb olacaq.

### "Gül dəftəri"

Daha sonra Xurşidbanu Natəvanın əl işlərinin, əşyalarının qorunduğu və tədqiq edildiyi Etnoqrafiya elmi fond şöbəsi ilə tanış olduq. Burada şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Gülzadə Abdulova bizi Xan qızının əşyaları ilə tanış etdi. Bildirdi ki, Natəvana məxsus əşyalar Azərbaycan Milli İncəsənət Muzeyi ilə yanaşı Bərdə Tarix-Diyarşünaslıq Muzeyində də qorunur. Gülzadə xanım 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Şuşa qrantı" əsasında nəşr olunmuş "Qarabağ geyimləri" (müəlliflər – Fəzayıl Vəliyev və Gülzadə Abdulova) kitab-kataloquna muzeyin eksponatları sırasından Natəvanın geyimlərinin də daxil edildiyini diqqətə çatdırdı.

Ayrı-ayrı eksponatlar haqqında bilgi alıram. 1886-cı ilə aid "Gül dəftəri" adlı albom diqqətimi cəlb edir. Albomda Natəvanın qrafika üsulunda çəkdiyi müxtəlif gül və təbiət mənzərələri ilə yanaşı, Bakının görüntüsü, ev, körpü və s. təsvirləri də yer alıb. Şairənin albomun üz qabığına ipək saplar və muncuqlarla tikdiyi nəbati təsvirlər onun bədii zövqünün zənginliyinin daha bir göstəricisidir.





Natəvanın güləbətin sapla tikdiyi yaxalıq, başmaq, öz dövrü üçün yeni olan "xaç" tikmə üsulu ilə bəzədiyi xurcun, qazantutan onun bu sənət sahəsindəki yüksək istedadından soraq verir. Tarixdən məlumdur ki, hətta məşhur fransız yazıçısı Aleksandr Düma (ata) da Natəvanın bu istedadına valeh olub. Şairə 1858-ci ildə həyat yoldaşı Xasay Usmiyevlə bərabər Aleksandr Düma ilə Bakıda görüşərkən başqa hədiyyələrlə yanaşı, ona öz əlilə tikdiyi pul kisəsini də verib. Hədiyyənin zərifliyinə və yüksək sənətkarlıqla işlənməsinə heyran qalan Düma onu "ən gözəl hədiyyə" adlandırıb.

### Bacarıqlı modelyer

Muzeydəki materiallar Xurşidbanu Natəvanı dövrünün bacarıqlı modelyeri kimi də bizə tanıdır. Fondda saxlanılan Avropasayağı üslubda köynəyi şairə vaxtilə öz əlləri ilə tikərək əmisi qızı Münəvvər xanıma hədiyyə edibmiş. Əlbəttə ki, bu, Natəvanın yeganə əl işi deyil. Geyimin tikiş texnologiyası müəllifin ustalığından, yüksək zövqə malik olmasından xəbər verir. Buna sübut kimi Xan qızının fotoşəkillərini nümunə çəkə bilərik. Belə ki, şəxsi geyimləri və fotoşəkillərindən onun yüksək zövq sahibi olduğu nəzərə çarpır. Bu arada Gülzadə xanım bildirir ki, Natəvanın fotolarına diqqət edəndə onun bədən ölçülərini tam sezmək olur. Bu mənada bəzi geyimlər var ki, qohumları bu əşyaları Natəvanın özünə məxsus olduğunu iddia etsələr də, biz onun tikiliş üslubu və zövqə görə Natəvan tərəfindən tikildiyini müəyyən edə bilirik... Həmçinin qeyd etmək lazımdır ki, muzeydə qorunan onlarla nimtənə biçim və tikiş üsuluna aid materiallar içərisində Natəvana məxsus olanlar digər nümunələrdən fərqlənir. Şairənin rəssamlıq qabiliyyəti bu əl işlərində də özünü göstərir. Xara parçadan tikilmiş nimtənənin yaxası zanbaq, qolları yelpazə biçimlidir. Nimtənənin astarının parçanın yerliyinin rənginə uyğun seçilməsi geyimin estetik gözəlliyini daha da artırır. Burada saxlanılan arxalıqlarda dövrünə görə qeyri-adi biçim üsulunun olduğunu görürük. Bu gözəl qabiliyyəti ilə Xurşidbanu Natəvan Azərbaycan geyim mədəniyyətinə yeniliklər gətirib.







Xalçaçılıq sahəsində də özünü sınayan şairə Azərbaycanın dünyaya səs salan ənənəvi el sənətində parlaq izlər qoyub. Onun xalçalarının beynəlxalq sərgilərdə iştirak etməsi haqqında da bəzi məlumatlar var. Muzeydə qorunan xurcun, quranqabı, bəzəkli başmaq, yaxalıq, tənbəki kisəsi, süfrə, məfrəş və s. şairədən bizə qalan dəyərli yadigarlardır.

XIX sonu – XX əsrin əvvəlində ölkəmizdə qadınların üst geyim növü hesab edilən tuman maddi durumundan asılı olaraq müxtəlif növ parçalardan – qanovuz, darayı, tirmə və s. hazırlanırdı. Həmçinin o dövrdə bu geyim növü üçün yaş fərqi də nəzərə alınırdı. Yaşlı qadınlar tünd və birrəng, gənc qız və gəlinlər isə rəngli, güllü parçalardan hazırlanan tumanlara üstünlük verirdi. Şairəyə məxsus ənənəvi qadın geyim nümunəsi olan nimtənə yun parçadan hazırlanaraq XIX-XX əsrlər Azərbaycan qadınlarının istifadə etdiyi gündəlik geyim nümunəsidir. Çəpkəndə olduğu kimi, nimtənənin də qollarının və ətəyinin kənarına güləbətin və digər tikməli baftalar əlavə edilirdi.

Eksponatlar arasında başmaq məmulatına isə iki növdə rast gəlirik. Biri mahud, digəri isə bez parçadan hazırlanıb və üstü muncuqlarla bəzədilib. Həmin dövrdə başmağın pəncə hissəsi qalın parçadan (mahud, məxmər) olmaqla bərabər, onun üzərini güləbətin tikmə ilə də bəzəyirdilər.

Şairənin fondda mühafizə olunan yeddi saxlama vahidi geyimi var. Bu geyimlər zərxaradan tikilmiş, boynu və yaxası baftalı köynək, məxmərdən tikilmiş və qol ağzı güləbətin tikmə üsulu ilə bəzədilmiş nimtənə, qaz parçadan tikilmiş və ətəyinə baftadan bəzək verilmiş tuman, muncuq tikmə üsulu ilə bəzədilmiş başmaq və s. ibarətdir.

Zərxaradan tikilmiş arxalıq biçim üsuluna və tikiş tərzinə görə muzeyin nadir eksponatlarındandır. Arxalıq, eyni zamanda tarixi əhəmiyyətinə görə də xüsusilə çox qiymətlidir. Üzəri mavi, qırmızı, yaşıl rəngli ipək sap və güləbətinlə nəbati təsvirlidir. Ətəyi isə büzməlidir. Uzunluğu 49 sm, qolunun uzunluğu 53 sm-dir.

Xan qızının özü tikdiyi xurcun da maraqlı eksponatlar sırasındadır. Bu əl işi tarixi ənənələrimizi özündə yaşadan, yüksək bədii-estetik zövqə malik nümunələrdəndir. Keçmişdə məişətdə ərzaq daşınması üçün geniş istifadə edilən xurcun qara mahud parçadandır. Hər iki gözün üz səthində müxtəlif rəngli yun saplarla çərçivə içərisində gül dəstəsi tikilib. Xurcunun çiyinlik hissəsinə və içərisinə də eyni rəngli saplarla nəbati naxış salınıb. Gözlərin birinin üzərində "1880", digərində isə ərəb əlifbası ilə "1303" hicri tarixi həkk edilib. Astarı qara rəngli sətindən olan xurcunun bütün kənarı boyunca qara rəngli mahud üzərində müxtəlif rəngli iplərlə yarpaq təsvirləri salınıb. Ümumiyyətlə, Xan qızı xurcun üzərində işləmələrlə gözoxşayan kompozisiya yaradıb.

Gülzadə xanım deyir ki, haqqında söz açdığımız xurcun Natəvanın nəvəsi Naidə Səid qızı Məmmədova tərəfindən 1988-ci ildə muzeyə hədiyyə edilib. Digər əşyaların bir hissəsi şairənin qohumları və başqa şəxslər tərəfindən müxtəlif illərdə muzeyə təhvil verilib. Dostuxanım Səfərovanın 1974-cü ildə muzeyə təhvil verdiyi saatqabını isə Natəvanın qızı Xanbikə görkəmli maarif xadimi Məhəmməd Tağı Sidqiyə (1854-1903) hədiyyə edilibmiş.

Natəvanın dövrümüzə gəlib çatmış əl işləri və şəxsi əşyaları onun incə zövq və mahir sənət məharətinin göstəricisidir. Bu dəyərli eksponatlar haqqında ətraflı məlumat verən Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşlarına təşəkkürümü bildirirəm.

**Lalə Azəri**

# "Səni mütləq çəkəcəyəm" deyən rejissorlarla işləməyi sevirəm"

## Füzuli Hüseynov: "Mənə elə gəlir ki, Spartak roluna kim çəkilsəydi, məşhur olacaqdı..."

Kino xarici gözəlliyi seçir, istedadı isə sevir, məşhurlaşdırır. Məhz bu mənada kinoseverlərin sevimlisi olmaq hər aktyora nəsib olmur. Maraqlı kino obrazları ilə çoxsaylı tamaşaçı auditoriyasının rəğbətini qazanan Əməkdar artist Füzuli Hüseynovun bu gün 60 yaşı tamam olur. Fürsətdən istifadə edib kino ictimaiyyətinin daim diqqətində olan aktyorumuza təbriklərimizi çatdırdıq, yubilyarın bələdçiliyi ilə kino fəaliyyətini izlədik.

*– Yubiley yaşınız düşərli, uğurlu olsun.*

– Çox sağ olun.

*– Ümumiyyətlə, 60 yaş insana hansı mesajı ötürür?*

– Qocalıqdan xəbər verir (gülür). 50 yaşım olanda özümü həmin yaşda hiss etmirdim. Amma 60 yaşa çatanda hiss etdim ki, 50-ni ötmüşəm və artıq qocalıq yaxınlaşır. Hər bir halda taleyimizi, alın yazımızı yaşayırıq, ömür yolumuzu keçirik. Bu da gözəldir.

*– Doğum gününüzü kimlərlə qeyd edəcəksiniz, doğmalarla, yoxsa dostlarla?*

– 55 yaşımı dostlarımın təkidi ilə daha geniş qeyd etdim. Amma dəvət edə bilmədiyimə görə bir çoxları məndən incidi. Buna görə də bu dəfə doğum günümü dəbdəbəli keçirtməyəcəm. Gedib doğmalarımla, anamla, bacı-qardaşımla görüşəcəm. Sonra da dostlarımla yığışıb yüngülvarı qeyd edəcəyik.

*– Yeri gəlmişkən, ailəniz haqqında bir qədər məlumat əldə edək...*

– Atam İsmət kişi uzun illər sürücü işləyib. Halal zəhməti ilə ailəmizi dolandırıb. Ailədə 5 uşağıq – 2 bacı, 3 qardaş. Anam Mina xanım evdar qadındır. Şükürlər olsun ki, bu il 89 yaşı tamam oldu. Xoşbəxt insanam ki, 60 yaşımda anamı qucaqlaya, yanında otura bildim. Bundan gözəl nə ola bilər ki, adam özünü uşaq kimi hiss edir (gülür). Atam qarşımıza heç vaxt şərt qoymayıb. Həmişə ali təhsilli olmağımızı istəyib.

*– Ailədə sizdən başqa sənətə üz tutan oldumu?*

– Kiçik bacım İncəsənət İnstitutunun Mədəni-maarif şöbəsinin Kütləvi tamaşalar rejissorluğu fakültəsini bitirib.

*– Atanız peşə seçiminizə mane olmadı ki?*

– Yox. Amma bir dəfə fikrini dolayısı ilə bildirdi. "Yad qızı" tamaşasındakı rolumu (Məzhər) izləmişdi və mənə belə gəldi ki, bəyənmişdi. Amma yenə də sözü bu oldu ki, "Sən də özünə fərli bir peşə tapmadın. Ac qalacaqsan, pul qazana bilməyəcəksən". Kişi düz deyirmiş (gülümsəyir).

*– Sənət təcrübəniz və fakturanız kinoya uyğundur. Kinoda az çəkilməyiniz isə təəccüb və təəssüf doğurur...*

– 1980-ci ildə instituta qəbul olunduğum vaxtdan etibarən "Azərbaycanfilm" Kinostudiyasında istehsal olunan əksər filmlərə dəvət almışam. Amma nədənsə çəkilməmişəm. Sonralar dərk etdim ki, hər rejissorun öz komandası var və filmlərinə eyni aktyorları dəvət edirlər. Yeni aktyor az götürürdülər. Məsələn, "Ötən ilin son gecəsi" filmində Rüstəm roluna çəkilmək üçün dəvət aldım, amma bu rola Kamil Zöhrabov çəkildi. Bir müddət sonra Gülbəniz Əzimzadədən çəkilməməyimin səbəbini soruşanda o, ailə üzvlərinə oxşarlığım olmadığını bildirdi. Təbii ki, bu cavab məni qane etmədi...

*– Bu filmdə alınmasa da, "Müqəddəs oda yanaram" psixoloji dramında Gülbəniz xanımla birlikdə çalışdınız...*

– Ssenari müəllifi Hafiz Fətullayev olan film sponsor hesabına çəkilirdi. Bilgəhdə çəkiliş prosesi Gülbəniz xanımın iştirakı ilə başladı. Amma bizimlə daha çox Hafiz müəllim işləyirdi. O, Zəhra roluna əvvəlcə türkiyəli aktrisa Aydan Şeneri dəvət etmək istəyirdi, amma nədənsə alınmadı. Tərəf-müqabilimi Həmidə Ömərova canlandırdı. Çəkilişlər zamanı "Təhminə" filminə dəvət aldım. Emin Sabitoğlu nə üçünsə çəkiliş meydançasına gəlmişdi. Fasilə zamanı çay içirdik. Məndən soruşdu ki, razısansa Rasim Ocaqova deyim. Mən də razılığımı bildirdim...



*– İrihəcmli ekran obrazlarınız varkən daha çox Spartak roluna görə tanınmağınız sizi qıcıqlandırmır ki?*

– "Təhminə" filmində baş rola dəvət almışdım. Müəyyən səbəblərdən alınmadı. Rasim müəllim sonra belə qərara gəlib ki, məni Spartak roluna sınaq olmadan çəksin. Onunla işləmək çox maraqlı idi. Çünki işinin ustası idi və fikirlərini dəqiq çatdırır, sözünü birbaşa deyirdi. Mənə belə gəlir ki, Spartak roluna kim çəkilsəydi, belə məşhur olacaqdı. Çünki Spartak bir neçə epizodda görünsə də, öz dövrünün seçilən, istədiyi hər şeyi əldə edən insandır. Buna görə də gənclər onu daha çox yadda saxladı. Təbii ki, kiçik həcmli rolla yadda qalmaq istəməzdim. Amma yenə də incimirəm, çünki hər aktyorun bir-iki məşhur rolu olur və izləyicilər də həmin rollara görə onu tanıyırlar, sevirlər.

*– Teatr aktyoru kamera qarşısına keçəndə özünü necə hiss edir?*

– İmtahan qarşısında olan tələbə kimi (gülür). Çox az hallarda kino aktyorunun rolu səhnədə uğurlu alınır. Teatr aktyorlarının isə kinoda uğuru çox olur. Həm də kino kollektiv əməyin məhsuludur. Rolun uğuru tək aktyordan asılı olmur. Burada rejissorun, operatorun və digərlərinin də böyük əməyi var. Həmçinin rolun uğurlu alınmasında müxtəlif planlı çəkilişlərin və montajın da rolu böyükdür.

*– Hansı rejissorla işləmək sizə stimul verirdi?*

– Görkəmli kinorejissor Tofiq Tağızadə maraqlı insan idi. Özünəməxsus izahetmə metodu vardı. "O dünyadan salam" filmində Cəlil Məmmədquluzadə obrazı yox idi. Tofiq müəllim məni Kefli İsgəndər roluna çəkmək istəyirdi. Kollektiv də istəyirdi ki, o rolu mən oynayım. Amma elə oldu ki, Yılmaz Duru həmin rola təsdiqləndi. Belə olan halda Tofiq müəllim Mirzə Cəlilin öz qəhrəmanları ilə görüşməsi timsalında Cəlil Məmmədquluzadə obrazını ssenariyə əlavə etdi və məni çəkdi.

Ramiz Həsənoğlu məni hansı rola dəvət edibsə, hamısına getmişəm. Çünki o, tələbə ikən tamaşalarımızın məşqlərinə baxan, məni ilk dəfə televiziyaya dəvət edən, maraqlanan ilk rejissordur. 1984-cü ildə "Müfəttiş" diplom tamaşamızda Xlestakovu oynayırdım. Ramiz müəllim gəlib tamaşaya baxdı və məni "Qapalı orbit" tamaşasına dəvət etdi. Bu, mənim televiziyada ilk böyük işim oldu. Həmin teletamaşadan sonra insanlar məni artıq tanıyırdılar, şəhərə çıxanda yaxınlaşırdılar. Bunlar əvvəlcə mənə qəribə gəlirdi. Sonra yavaş-yavaş anladım ki, özündən razılıq insanı bitirir. Buna görə də bu kimi xüsusiyyətləri özümdən uzaqlaşdırdım. Ramiz müəllimlə belə başladıq. Quruluş verdiyi "Cavid ömrü" tarixi-bioqrafik filmində Səyavuş rolu da mənim üçün maraqlı iş oldu.

*– Lütfi Məmmədbəyovun quruluş verdiyi televiziya tamaşaları da sizi çox məşhurlaşdırdı...*

– Lütfi müəllim klassik teatr məktəbinə məxsus sənətkarlarımızdan idi. O, mənim müəllimim olmayıb, rəhbərlik etdiyi dərnəyə də getməmişəm. Sənətin bütün incəliklərinə bələd idi. Hamımız ona müəllim deyirdik. 1994-cü ildə teatrdan ayrılmışdım. Həmin vaxtlarda o, bir neçə tamaşa çəkmişdi. Biz görüşəndə dedi ki, səni nə qədər axtardım, heyf, tapa bilmədim. Xətrimi çox istəyirdi. Arada zarafatlarımız da olurdu. İzləyicilər "Yad qızı" tamaşasını çox sevmişdi. Hətta Şəkidə bir nəfər mənə yaxınlaşıb dedi ki, "100 qram arağa görə adam heylə bir arvadı boşayar?" (gülür).

*– Elxandan başqa kino rollarınızın hamısını özünüz səsləndirmisiniz...*

– "Bəyin oğurlanması" filmini Tofiq İsmayılov çəkirdi. Ssenari müğənni Sərxan Sərxan üçün yazılmışdı. Həmin vaxt kinostudiyanın rəhbərliyi dəyişildi, film Tofiq müəllimdən alınıb gənc kinematoqrafçılara verildi. Ssenari gecə yazılırdı, səhər çəkilirdi. Elxan roluna məni Ceyhun Mirzəyev dəvət etdi. Dedim məni sınaq çəkilişlərinə çox çağırıblar, amma çəkməyiblər. Dedi sınaq çəkilişlərinə get, şəkillərini özüm götürəcəm, səni mütləq çəkəcəm. İki gündən sonra onunla görüşdüm. Dedi ki, sən çəkiləcəksən. Mən də sevindim. Dedim, şükürlər olsun, nəhayət, kimsə sözünün üstündə durdu. Bu, əslində, baş rol olmalı idi, amma ssenari hər gün dəyişirdi. Yenə də sevinirəm ki, ölkənin tanınmış aktyorları ilə birlikdə bu filmdə çəkildim. Orduya çağırıldığım üçün rolumu Rasim Balayev səsləndirdi. Bu da mənim üçün fəxrdir.



*– Dublyajla məşğul olmusunuzmu?*

– Dublyajla ilk vaxtlar maraqlandım və bu sənəti Həsən Əblucdan öyrəndim. Onunla çox doğma münasibətimiz vardı. Kinostudiyanın nəzdində fəaliyyət göstərən dublyaj studiyasının aktyorları səs sənətinə olduqca dəqiqliklə yanaşır, incəlikləri dərindən bilirdilər. Nə sualım olurdusa Həsən Əbluca müraciət edirdim. O da köməyini əsirgəmirdi. Kinostudiyada Dublyaj şöbəsinin fəaliyyəti dayandırıldıqdan sonra "Lider" televiziyasına dəvət aldım və orada bir neçə filmi dublyaj etdim. Kinostudiyanın dublyaj studiyasındakı effekti vermədiyinə görə televiziyadan ayrıldım.

*– Füzuli Hüseynov kinoya nə verib?*

– Kinoya nəsə vermək üçün gərək sənin üçün ssenari yazılsın. Ümumiyyətlə, "səni mütləq çəkəcəm" deyən rejissorlarla işləməyi çox sevirəm. Çünki o, çəkəcəyi aktyordan nə alacağını bilir və potensialını üzə çıxarmağa hazır olur.

*– "Kino ciddi peşədir, onunla zarafat etmək olmaz" fikrinə münasibətiniz necədir?*

– Kino da, teatr da ciddi peşədir. Zərgər dəqiqliyi tələb edir. Mənə işin ciddiliyini öyrədən ustad pedaqoq Nəsir Sadıqzadə olub. İnstitutda o, bizə iki il sənət dərsi keçib. Bu gün də sənət müəllimimdən öyrəndiyim vacib detalları unutmuram.

*– İnsan həm də arzularla yaşayır. Planlarınızı bilmək istəyərdik.*

– Həyatımda və sənətimdə heç vaxt plan qurmuram. Hər dəqiqənin bir hökmü var. Amma maraqlı təklif gəlsə, işgüzar, peşəkar insanlarla işləməyə hazıram.

**Şəhla Əmirli**
**kinoşünas**

## Qala-şəhərimizin ibadətgahları haqqında 12 dildə videoçarx

Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən mədəniyyət paytaxtımızın tarixindən, ziyarətgah və dini abidələrindən bəhs edən "Qədim Şuşa ibadətgahları" adlı sənədli videoçarx hazırlanıb.

Tərcümə Mərkəzindən bildirilib ki, beynəlxalq internet məkanında Azərbaycan, ingilis, rus, ispan, fransız, alman, türk, çex, gürcü, fars, ərəb və Ukrayna dillərində yayımlanan videoçarx xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirlik və nümayəndəliklərinə, eləcə də dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinə göndərilib.

## Süni intellekt də film yaradır...

Alman eksperimentator Fabian Ştelzer süni intellektdən istifadə edərək film hazırlayır. Müəllif gələcək "Duz" adlı filmindən bir səhnəni təqdim edib.



Müəllifin sözlərinə görə, film tamamilə neyron şəbəkələr dəsti ilə ərsəyə gətiriləcək. Bu şəbəkələr sayəsində görüntü və personajların səsləri, eləcə də xüsusi effektlər yaradılacaq.

F.Ştelzer kino sahəsində yenilikçi olmaq niyyətindədir və süni intellektin onun ssenarisi üzrə tammetrajlı film yarada biləcəyinə inanır.

Eksperimentatorun yaradacağı "Duz" layihəsi kosmonavtların qəribəliklərlə zəngin olan sərgüzəştlərinə həsr olunacaq. Filmin davamı isə izləyicilərin özlərindən asılıdır. Müəllifin tapıntısına görə, tamaşaçılar ideyadan ilhamlanaraq neyron şəbəkələrə üçün mətn təlimatlarını özləri tərtib edəcəklər.

## Xatirə təqvimi — 10-13 sentyabr

### Azərbaycan

**10 sentyabr 1901** – Əməkdar artist, vokalçı Qulam Məşədi Kazım oğlu İsgəndərov (1901-1975) Şamaxıda doğulub. Opera və Balet Teatrında çalışıb.

**10 sentyabr 1917** – Xalq artisti Firuzə Məmmədqulu qızı Əlixanova (1917 – 24.11.1994) Naxçıvan MR Ordubad rayonunda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb, teatrın ilk aktrisalarından biri olub.

**10 sentyabr 1931** – Xalq artisti, tanınmış vokal ifaçısı, aktyor Mobil Salman oğlu Əhmədov (1931 – 3.6.2006) Gəncədə doğulub. 40 ilə yaxın Musiqili Komediya Teatrında çalışıb, tamaşalarda əsas rolları ifa edib.

**10 sentyabr 2015** – Əməkdar rəssam Altay Ağasəid oğlu Səidov (1926 – 10.9.2015) vəfat edib. Gənc Tamaşaçılar Teatrında baş rəssam işləyib.

**11 sentyabr 1913** – Kinorejissor, operator, Xalq artisti Muxtar Baba oğlu Dadaşov (1913 – 7.5.1998) anadan olub. "Qanun namına", "Bakıda küləklər əsir" və s. filmlərə quruluş verib. Sənədli və bədii filmlərin ("Yeni horizont", "Arşın mal alan") operatoru olub.

**11 sentyabr 2001** – Xalq artisti Məmməd Allahverdi oğlu Quliyev (15.3.1914 – 2001) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**12 sentyabr 1887** – Görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli (1887 – 3.1.1943) Şuşada doğulub. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda səfiri olub, sonra mühacirətdə yaşayıb, 1926-cı ildə Azərbaycana qayıdıb. 1940-cı ildə həbs olunub, Rusiyanın Nijni-Novqorod vilayətində həbs düşərgəsində vəfat edib. "İki od arasında" ("Qan içində") tarixi romanının, "Qızlar bulağı", "Bir cavanın dəftəri" və s. əsərlərin müəllifidir.

**12 sentyabr 1921** – Şair, dramaturq Novruz Gəncəli (Novruz İsmayıl oğlu Sadıqov; 1921 – 19.10.1995) anadan olub. C.Bayronun şeirlərini, B.Brextin "Kuraj ana və onun uşaqları" pyesini Azərbaycan dilinə çevirib.

**12 sentyabr 1960** – Əməkdar artist Süleyman Məşədi İsmayıl oğlu Tağızadə (13.4.1909 – 1960) vəfat edib. Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**12 sentyabr 2001** – Yazıçı, tərcüməçi Manaf Fərəc oğlu Süleymanov (3.3.1912 – 2001) vəfat edib. Köhnə Bakı haqqında "Eşitdiklərim, oxuduqlarım və gördüklərim" adlı tarixi-ensiklopedik kitabın, "Dalğalar qoynunda", "Fırtına", "Zirvələr", "Yerin sirri" və s. romanların müəllifidir.

**12 sentyabr 2004** – Əməkdar mədəniyyət işçisi Turan Cavid (Turan Hüseyn Cavid qızı Rasizadə; 2.10.1923 – 2004) vəfat edib. C.Cabbarlı adına Dövlət Teatr Muzeyinin, H.Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**12 sentyabr 2008** – Bakıda dahi özbək şairi Əlişir Nəvainin abidəsinin açılışı keçirilib. Mərasimdə Azərbaycan və Özbəkistan prezidentləri İlham Əliyev və İslam Kərimov iştirak ediblər.

**13 sentyabr 1893** – Əməkdar artist, opera müğənnisi Əli Əbdül oğlu Zülalov (1893-1963) Şuşada anadan olub.

**13 sentyabr 1933** – Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik, Dövlət mükafatı laureatı Arif Cahangir oğlu Məlikov (1933 – 9.5.2019) Bakıda doğulub. "Məhəbbət əfsanəsi" baleti, "Dalğalar" operettası, "Füzuli", "Vətən", "Metamorfozlar" simfonik poemaları, 8 simfoniya və s. əsərlərin müəllifidir. Filmlərə ("Sehrli xalat", "Axırıncı aşırım"), tamaşalara musiqi yazıb. Bakı Musiqi Akademiyasının professoru olub.

**13 sentyabr 1969** – Xalq rəssamı İsmayıl Hüseyn oğlu Axundov (15.4.1907 – 1969) vəfat edib. Azərbaycan Rəssamlar İttifaqının ilk sədri olub.

### Dünya

**10 sentyabr 1839** – Amerika filosofu, praqmatizm və semiotikanın banilərindən biri Çarlz Sanders Pirs (Charles Sanders Peirce; 1839-1914) anadan olub.

**10 sentyabr 1872** – Rus yazıçısı, etnoqraf, səyyah, Uzaq Şərqin tədqiqatçısı Vladimir Arsenyev (1872-1930) anadan olub. Əsərləri: "Dersu Uzala", "Tayqanın ortasında" və s.

**10 sentyabr 1912** – Məşhur Danimarka karikaturaçısı Herluf Bidstrup (Herluf Bidstrup; 1912-1988) anadan olub.

**10 sentyabr 1914** – Amerika kinorejissoru Robert Uayz (Robert Wise; 1914-2005) anadan olub. İki dəfə "Oskar" laureatıdır: "Vestsayd əhvalatı", "Musiqi səsləri".

**10 sentyabr 1934** – Türk mənşəli (Krım tatarı) Ukrayna bəstəkarı Alemdar Karamanov (1934-2007) anadan olub. Əsərləri: "Ay dənizi" simfoniyası, "Məhəbbətdən güclü" baleti və s.

**11 sentyabr 1862** – Amerika yazıçısı, novella janrının ustası O` Henri (William Sydney Porter; 1862-1910) anadan olub. Əsərləri: "Dörd milyon", "Yanan lampa", "Taleyin yolları" hekayələr toplusu, "Krallar və kələm" romanı və s.

**11 sentyabr 1865** – Latviya şairi və dramaturqu Yan Raynis (əsl soyadı Pliekşans; 1865-1929) anadan olub. Kitabları: "Tufan səpini", "Son və başlanğıc", "Evə".

**11 sentyabr 1894** – Ukrayna kinorejissoru, SSRİ Xalq artisti Aleksandr Dovjenko (1894-1956) anadan olub. Filmləri: "Arsenal", "Torpaq", "Aeroqrad" və s.

**11 sentyabr 1885** – İngilis yazıçısı David Herbert Lourens (David Herbert Lawrence; 1885-1930) anadan olub. Psixoloji romanları ilə məşhurlaşıb: "Göy qurşağı", "Vurğun qadınlar", "İtkin qız", "Ledi Çatterleyin məşuqu".

**11 sentyabr 1903** – Alman filosofu və musiqişünası Teodor Adorno (Theodor Ludwig Wiesengrund-Adorno; 1903-1969) anadan olub.

**11 sentyabr 1914** – Görkəmli türk maarifçisi, mütəfəkkir İsmayıl Qaspıralı (Gasprinski; 8.3.1851 – 1914) vəfat edib. Türk dünyasının maariflənməsində rol oynamış "Tərcüman" qəzetinin naşiri olub.

**11 sentyabr 1937** – Rusiya müğənnisi, SSRİ Xalq artisti İosif Davidoviç Kobzon (1937-2018) anadan olub.

**12 sentyabr 1921** – Polyak satirik yazıçısı Stanislav Lem (Stanislaw Lem; 1921-2006) anadan olub. Əsərləri: "Solyaris", "Səmanın səsi", "Yerdə sülh", "Aldebarandan müdaxilə" və s.

**13 sentyabr 1874** – Avstriya bəstəkarı Arnold Şönberq (Arnold Franz Walter Schoenberg; 1874-1951) anadan olub. Musiqidə ekspressionizmin nümayəndəsi, "Moisey və Aaron" operası, "İntizar" monodramı və s. əsərlərin müəllifidir.

**13 sentyabr 1894** – İngilis yazıçısı və dramaturqu Con Boynton Pristli (John Boynton Priestley; 1894-1984) anadan olub. Əsərləri: "Mehriban dostlar", "Mələk küçəsi", "Cənnət guşəsi" (pyeslər), "Qretlidə qaranlıq" (roman) və s.

**13 sentyabr 1905** – Fransız əsilli Amerika aktrisası, "Oskar" laureatı Klodet Kolber (Claudette Colbert – Lily Claudette Chauchoin; 1905-1996) anadan olub.

**13 sentyabr 1924** – Fransa bəstəkarı Moris Jarr (Maurice Jarre; 1924-2009) anadan olub. 100-dən çox filmə musiqi yazıb, 3 dəfə "Oskar" mükafatına layiq görülüb.

**Hazırladı: Vüqar Orxan**

# Azərbaycanın ipəkçilik sənəti Bursada festivalda nümayiş olunub

Xəbər verdiyimiz kimi, sentyabrın 1-dən 4-dək "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursada keçirilən III "Baramadan ipəyə" beynəlxalq festivalında Azərbaycanın ipəkçilik sənəti də təqdim edilib.






Bursa Böyükşəhər Bələdiyyəsinin təşkil etdiyi festivalda Nizami Gəncəvi Vəqfinin təşəbbüsü, Bakı Yunus Əmrə İnstitutunun dəstəyi və "Azəripək" MMC-nin tərəfdaşlığı ilə "Kəlağayı: Şəkidən Bursaya doğru uzanan ipək tellər" adlı milli stendimiz qurulub.

Tədbirə Azərbaycanla yanaşı Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Kiprdən də heyətlər qatılıb. Ölkəmizin nümayəndə heyətində Nizami Gəncəvi Vəqfinin direktoru Rəfi Qurbanov, direktor müavini Arzu Təbrizli, "Azəripək" MMC-nin əməkdaşları Elvira Məmmədova və İlqar Nəzirov yer alıblar.

Tədbirin açılış mərasimində Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş Azərbaycan stendini ziyarət edib. Nizami Gəncəvi Vəqfinin direktoru Rəfi Qurbanov bələdiyyə başqanına stendimiz haqqında məlumat verib. "Azəripək" MMC-nin şöbə müdiri Elvira Məmmədova tərəfindən Alinur Aktaşa xarıbülbüllə bəzədilən ipək kəlağayı hədiyyə edilib.



Milli stenddə nümayiş etdirilən Azərbaycan milli geyimləri modelyerlər – Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova və Azərbaycan Milli Geyimlər Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilova tərəfindən hazırlanıb.

Ölkəmizin stendi ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb. Festivalın ikinci günü "Azəripək" MMC-nin əməkdaşları tərəfindən ziyarətçilər üçün kəlağayı üzərində basmanaxış üzrə ustad dərsləri təşkil olunub, kəlağayının tarixi haqqında ətraflı məlumat verilib.

Milli stendin təşkilində Bursa Azərbaycan İnnovasiya və Həmrəylik Dərnəyinin (BAİDD) üzvləri olan Bursa Uludağ Universitetinin azərbaycanlı tələbələri də könüllü qismində iştirak ediblər. Festivalın son günü nümayəndə heyətimiz dərnəyin rəhbəri və azərbaycanlı tələbələrlə görüşüb. Bursa Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə BAİDD-ın yeni açılan ofisində baş tutan görüşdə Nizami Gəncəvi Vəqfi tərəfindən milli stendin təşkilində könüllü iştirak edən azərbaycanlı tələbələrə sertifikatlar və Şuşa haqqında kitab təqdim edilib.

Nümayəndə heyəti Bursa şəhərində müalicə alan 44 günlük Vətən müharibəsi qaziləri ilə görüşüb, onlara Azərbaycandan gətirilən milli şirniyyatlar və Şuşa haqqında kitab təqdim olunub.

Qazilərimiz müalicələrinin uğurla davam etdiyini bildirib, göstərilən dəstəyə görə dövlətimizə və xüsusilə "YAŞAT" Fonduna minnətdarlıq ifadə ediblər.

# "Kitab sənəti"nin mükafatları təqdim edilib

2-5 sentyabr tarixində 35-ci Moskva Beynəlxalq Kitab Sərgisi keçirilib. Sərgi çərçivəsində MDB ölkələri arasında 19-cu beynəlxalq "Kitab sənəti" müsabiqəsinin təltifolunma mərasimi də təşkil edilib. Tədbirdə Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin əməkdaşı İslam Hüseynov iştirak edib.



Xatırladaq ki, MDB İcraiyyə Komitəsinin təşkilatçılığı ilə keçirilən ənənəvi "Kitab sənəti" müsabiqəsi bu il 24-26 iyun tarixində Qırğızıstanın paytaxtı Bişkek şəhərində baş tutub. Müsabiqədə Azərbaycan kitabları da müxtəlif nominasiyalar üzrə mükafatlara layiq görülüb.

Mərasimdə "Elm və təhsil", "İllüstrasiya incəsənəti" və "Mənim ölkəm" adlı nominasiyalarda 3 birinci dərəcəli diplom, digər nominasiyalarda 4 ikinci dərəcəli diplom, habelə 3 üçüncü dərəcəli diplomlar Azərbaycan nümayəndəsinə təqdim olunub. İslam Huseynov çıxış edərək Mədəniyyət Nazirliyi adından tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

## "Balıqlara xütbə" "Asiya kinosuna pəncərə"də

Azərbaycanlı rejissor Hilal Baydarovun "Balıqlara xütbə" filmi Cənubi Koreyada – Busan Beynəlxalq Film Festivalının "Asiya kinosuna pəncərə" bölümündə nümayiş olunacaq. Festival oktyabrın 5-dən 14-dək davam edəcək.

Busan şəhərində keçirilən ənənəvi festival Asiyanın nüfuzlu film yarışmalarından biridir.

Xatırladaq ki, Hilal Baydarovun yeni filmi avqust ayında 75-ci Lokarno Film Festivalının (İtaliya) əsas müsabiqə proqramında nümayiş olunub və maraqla qarşılanıb.

"Balıqlara xütbə" festivalda jürinin "Xüsusi diqqət" ("Special Mention Pardo Verde WWF") və gənc münsiflər heyətinin mükafatlarına layiq görülüb.

"Balıqlara xütbə" filmi Azərbaycan, Meksika, İsveçrə və Türkiyə kinematoqrafçılarının birgə işidir. Filmin ssenari müəllifləri Hilal Baydarov və Aisu Akcandır. Ekran əsəri müharibələrdə, savaşın ağrıları içində itmiş, unudulmuş ruhlar haqqında fəlsəfi nağıldır.

## Azərbaycan əsilli arfaçı beynəlxalq müsabiqədə üçüncü olub

İtaliyanın Saluzzo şəhərində keçirilən "Suoni d'Arfa" 11-ci Beynəlxalq arfa müsabiqəsinin nəticələri elan edilib.



Fransada yaşayan Azərbaycan əsilli Marqarita Ramazanova müsabiqədə üçüncü yeri tutub.

Marqarita bacısı Ela və qardaşı Dəniz ilə birlikdə Strasburq Konservatoriyasının musiqi alətləri, xor və balet siniflərində təhsil alır.

O, müsabiqədən əvvəl arfada ifa etdiyi üç musiqi əsərinin videosunu münsiflər heyətinə göndərib. Onun ifası bəyənilib və o, müsabiqəyə qatılmaq şansı qazanıb.

"Suoni d'Arfa" beynəlxalq müsabiqəsi bacarıqlı gənc arfaçıların inkişafına kömək etmək, eləcə də arfa üçün yazılmış və ya tərtib edilmiş italyan repertuarları haqqında məlumatlılığı artırmaq məqsədi daşıyır.

# "Türk Dünyasının Mədəniyyət Paytaxtı"nda hərbi orkestrlər festivalı

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un təşəbbüsü və Bursa Böyükşəhər Bələdiyyəsinin ev sahibliyi ilə bu il ikinci dəfə təşkil edilən "Beynəlxalq Marş Orkestrləri Festivalı" böyük çoşqu ilə gerçəkləşib.

TÜRKSOY-dan verilən məlumata görə, 30 avqust – 1 sentyabr tarixlərində keçirilən festivala Azərbaycan, Qazaxıstan, Moldova, Qaqauziya (Moldova), eləcə də Türkiyənin müxtəlif şəhərlərindən kollektivlər qatılıblar.

Bursada Atatürkün heykəli önündən qrupların kortej yürüşü ilə başlayan tədbir Hüdavəndigar şəhər parkında təşkil olunan konsert proqramı ilə davam edib. Azərbaycandan Heydər Əliyev adına Hərbi İnstitutu orkestri, Qazaxıstan Prezidentinin Hərbi Orkestri və digər kollektivlər bursalılara xoş əhval yaşadıblar.




Həmin gün Türkiyənin Zəfər bayramı münasibətilə xüsusi konsert proqramı da düzənlənib.

Proqramın açılışında çıxış edən TÜRKSOY nümayəndəsi Cavid Mövsümlü qurumun baş katibi Sultan Raevin salamlarını bursalılara çatdırıb və tədbirə ev sahibliyi etdiyi üçün Bursa Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaşa təşəkkür edib. O, hərbi orkestrlərin dövlətlərin tarixində xüsusi rəmzi rolunu vurğulayaraq, festivalın dünyada ilk dəfə hərbi orkestr yaratmış Sultan Murad Hüdavəndigarın (I Murad) adını daşıyan parkda keçirilməsinin də əlamətdar fakt olduğunu deyib.

Festivalın ikinci günü Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaş müxtəlif ölkələrdən gələn orkestr rəhbərləri ilə görüşüb. O, iştirakçılara təşəkkür etməklə yanaşı, dəstəyə görə TÜRKSOY-a minnətdarlığını ifadə edib.

Festival iştirakçıları üçün şəhər üzrə tanıtım proqramı da təşkil edilib. Qonaqlar Osmanlı imperatorluğunun ilk paytaxtı və 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursanın tarixi-mədəni məkanlarını gəziblər.

**Mehparə Sultanova**
**Ankara**

Xronoqraf

# Tarixdə bu gün

Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 404 il əvvəl...

**10 sentyabr 1618-ci ildə** Səfəvi və Osmanlı dövlətləri arasında növbəti müharibənin (1616-1618) nəticələrinə dair Mərənd sülh sazişi imzalanıb. Səfəvi dövləti XVI əsrin sonunda Osmanlı ilə müharibədə (1578-1590) itirdiyi torpaqların böyük hissəsini geri aldı. Lakin bir müddət sonra (1625) tərəflər arasında yeni müharibə başlandı.

### 299 il əvvəl...

**12 sentyabr 1723-cü ildə** çar Rusiyası ilə Səfəvi dövləti arasında Peterburq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Azərbaycanın Xəzəryanı əraziləri (Dərbənddən Ənzəliyədək) Rusiyanın nəzarətinə verilib. Həmin dövrdə Osmanlı ilə müharibə aparan Səfəvi dövləti üçün bu saziş taktiki səciyyə daşıyırdı. Lakin Rusiya ona umduğu dəstəyi vermədi, əksinə, 1724-cü ildə Osmanlı ilə də müqavilə bağladı. Səfəvi dövləti Rusiyanın nəzarətinə verdiyi torpaqları 1732-1735-ci illərdə geri qaytara bildi.

### 227 il əvvəl...

**11 sentyabr 1795-ci ildə** Tiflis yaxınlığında gürcü çarı II İraklinin qoşunları ilə İran şahı Ağa Məhəmməd Qacarın qoşunları arasında döyüş olub. Qacarın qoşunları gürcüləri məğlub edərək Tiflisi ələ keçirib. Bir il sonra II İrakli Rusiya imperiyası ilə müqavilə bağladı və Kartli-Kaxetiya çarlığı Rusiyanın himayəsinə keçdi.

### 221 il əvvəl...

**12 sentyabr 1801-ci ildə** çar I Aleksandr Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzalayıb. Manifestə əsasən, Azərbaycanın tarixi torpaqları olan Şəmsəddil, Borçalı əraziləri də Rusiyanın tərkibinə qatıldı.

### 80 il əvvəl...

**9 sentyabr 1942-ci ildə** SSRİ Dövlət Müdafiə Komitəsinin (sədr İosif Stalin) qərarı ilə Azərbaycan SSR ərazisində hərbi vəziyyət elan edilib. Bu vaxt Almaniya qoşunları Qafqaz dağlarında idi və Bakı üzərinə hava reydləri həyata keçirilirdi.

### 74 il əvvəl...

**9 sentyabr 1948-ci ildə** Koreya Xalq Demokratik Respublikası yaranıb. İkinci dünya müharibəsindən sonra Yaponiyanın işğalından azad edilən Koreya yarımadası SSRİ və ABŞ-ın (38-ci paralel üzrə) nəzarətinə keçmişdi. Şimali Koreyada elan edilən sosialist təmayüllü dövlətin başçısı Kim İr Sen oldu.

### 70 il əvvəl...

**11 sentyabr 1952-ci ildə** Qərbi Almaniya (AFR) Kansleri Konrad Adenauer və İsrailin Baş naziri Ben Qurion barışıq sazişi imzalayıblar. Sazişə əsasən, Almaniya faşist idarəçiliyi dövründə yəhudilərə qarşı həyata keçirilmiş soyqırımına (Holokost) görə İsrail dövlətinə 293 milyon dollar təzminat ödəməli idi.

### 49 il əvvəl...



**11 sentyabr 1973-cü ildə** Çilidə hərbi çevriliş baş verib. General Auqusto Pinoçetin başçılıq etdiyi hərbi xunta Prezident Salvador Alyendeni qətlə yetirib. Çilidə Pinoçet rejimi 1989-cu ilədək sürdü. Həmin ildə Pinoçet azad seçkilərə şərait yaradaraq hakimiyyətdən getdi.

### 42 il əvvəl...

**12 sentyabr 1980-ci ildə** Türkiyədə dövlət çevrilişi baş verib, general Kənan Evrenin başçılıq etdiyi hərbçilər hakimiyyəti ələ alıblar. Dövlət çevrilişinin səbəbləri sosial-iqtisadi böhran, siyasi qüvvələrin, xüsusilə də sol-sağ qarşıdurmasının ölkəni vətəndaş müharibəsi astanasına gətirməsi idi. Çevrilişdən sonra ölkədə bütün partiyaların, müstəqil medianın fəaliyyəti dayandırıldı. 1982-ci ildə referendum yolu ilə ölkənin yeni Ana Yasası qəbul edildi, Kənan Evren prezident seçildi. ABŞ-da Dünya Bankında çalışan Turqut Özal isə baş nazirliyə dəvət olundu.

### 31 il əvvəl...

**9 sentyabr 1991-ci ildə** erməni silahlı dəstələrinin Ağdam-Xocavənd avtobusunu atəşə tutması nəticəsində 5 nəfər qətlə yetirilib. Eyni gündə Ağdam-Qaradağlı avtobusu güllləbaran edilmiş, 8 azərbaycanlı həlak olmuşdu.

### 21 il əvvəl...



**11 sentyabr 2001-ci ildə** ABŞ-da dəhşətli terror aktları baş verib. Terrorçu kamikadzelər tərəfindən qaçırılmış sərnişin təyyarələrinin ikisi Nyu-Yorkda Dünya Ticarət Təşkilatının qoşa qüllələrinə, biri isə Vaşinqtonda Pentaqonun (ABŞ Müdafiə Nazirliyi) binasına çırpılıb. 3 minə yaxın insanın həyatına son qoyan terrora görə məsuliyyət Üsamə bin Ladenin "Əl-Qayda" təşkilatının üzərinə qoyulub.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2578
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641